**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “Azərbaycanda əhali istehlakının qiymətləndirilməsi və proqnozlaşdırılması” mövzusunda

**MAGİSTR DİSSERTASİYASI**

**Həmzəyev İlkin İlham**

**BAKI - 2019**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh**

**"___" ____________ 20__-ci il**

**"Azərbaycanda əhali istehlakının qiymətləndirilməsi və proqnozlaşdırılması" mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı: 060404 "İqtisadiyyat"**

**İxtisaslaşma: "İqtisadiyyatın hüquqi tənzimlənməsi"**

**Qrup: 30**

**Magistran:**
**Həmzəyev İlkin İlham**

__________________

**Elmi rəhbər:**
**i.e.n., dos. Məmmədov Məmməd İbrahim**

__________________

**Proqram rəhbəri:**
**i.ü.f.d., b.m. Hümbətova Suqra İnqilab**

__________________

**Kafedra müdiri:**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi**

__________________

**BAKI – 2019**

**Estimation and forecasting of population consumption in Azerbaijan**

**Summary**

**The relevance of research: Investigation of the issue of population income and consumption indexation, consumption prediction, impact on the growth of national income over consumption is urgent**

**Purpose and tasks of the research: Studying the population consumption through the macroeconomic indicators system, its mathematical-economic models, as well as the economic growth model, and determining the impact of this research on indexing and predicting consumption forms the main purpose of the research.**

**Used research metods: Methods of systematic and comparative analysis of the dissertation are used, including mathematical-statistical, analysis and synthesis, as well as induction-deduction methods.**

**Research information base: Theoretical and methodological basis of the research is the Consulate of the Republic of Azerbaijan, Decrees and Orders of the President of the Republic of Azerbaijan, State Programs of the Republic of Azerbaijan, Statistical Committee of the Republic of Azerbaijan, magazines, newspaper materials, interviews and etc. contane.**

**Research restrictious: Theoretical and methodological shortcomings that are hindering the research, lack of sufficient information and so on. Scientific and practical importance of dissertation work.**

**Research results: The form and structure of consumption are proportionally balanced with the structure and structure of income, and the value of the natural consumption is reflected in the statement of comprehensive income rather than money and income**

**Scientific practical significance of the results: Scientific innovations in the dissertation work are as follows: Analysis of Consumer Costs per Capita in Households Consumption for Years in Azerbaijan Based on Statistical Indicators.**

**Keywords: Keywords: consumption, salary, budget, inflation**

## İXTİSARLAR VƏ İŞARƏLƏR

**ABŞ** **:** Amerika Birləşmiş Ştatları

**MDB** **:** Müstəqil Dövlətlər Birliyi

**ÜDM** **:** Ümumi daxili məhsul

**AR** **:** Azərbaycan Respublikası

# MÜNDƏRİCAT

**GİRİŞ**.......... 7

**I Fəsil. ƏHALİ İSTEHLAKININ QİYMƏTLƏNDİRİLMƏSİNİN NƏZƏRİ-KONSEPTUAL ƏSASLARI**.......... 11

1.1. Əhali istehlakının qiymətləndirilməsində əsas anlayışlar.......... 11

1.2. Əhali istehlakı haqqında informasiya mənbəyi.......... 17

1.3. Əhali istehlakının makrosəviyyədə göstəricilər sistemi.......... 23

1.4. Ev təsərrüfatlarının büdcəsi nümunəsi əsasında əhalinin istehlak fondları, əsas ərzaq məhsulları istehlakının öyrənilməsi.......... 30

**II Fəsil. AZƏRBAYCANDA ƏHALİ İSTEHLAKININ QİYMƏTLƏNDİRİLMƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ**.......... 37

2.1. Əhalinin istehlakının və istehlak qiymətlərinin dinamikası.......... 37

2.2. Əhali istehlakının qiymətləndirilməsinin iqtisadi-riyazi modelləri.......... 42

2.3. Əhali istehlakının iqtisadi artımla əlaqə modeli.......... 49

**III Fəsil. AZƏRBAYCANDA ƏHALİ İSTEHLAKININ PROQNOZLAŞDIRILMASI MƏSƏLƏLƏRİ**.......... 55

3.1. Azərbaycanda əhalinin gəlir və istehlakının indeksləşdirilməsi.......... 55

3.2. Azərbaycanda əhali istehlakının əsas makroiqtisadi göstəricilərinin proqnozlaşdırılması.......... 63

**NƏTİCƏ VƏ TƏKLİFLƏR**.......... 76

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**.......... 79

Cədvəllərin siyahısı.......... 83

Şəkillərin siyahısı.......... 83

Qrafiklərin siyahısı.......... 83

# GİRİŞ

**Mövzunun aktuallığı.** Azərbaycanda əhalinin gəlir və istehlakının indeksləşdirilməsi, istehlakın proqnozlaşdırılması, milli gəlirin artımının istehlak artıqlığına təsiri məsələsinin araşdırılması aktual məsələdir.

Məlum məsələdir ki, əhalinin istehlakı birbaşa gəlirlərdən asılıdır. Əhali istehlakına təsir göstərən bir-biri ilə əlaqəli proseslərdən biri bölgü prosesidir, hansı ki, məhsul istehsalında iştirak edən təsərrüfat subyektlərinin payını müəyyən edir. Gəlirlər mənsubiyyətindən asılı olmayaraq hər bir subyektin bazar fəaliyyətinin son məqsədi olaraq makroiqtisadi səviyyədə formalaşır, cəmiyyətin inkişafında əhəmiyyətli rol oynamaqla onun maliyyə əsasını, istehsalın genişlənməsi və tələbatların ödənilməsini funksiyalarını özündə saxlayır. Əhali gəlirlərinin ölçülməsində il ərzində istehsal olunan adambaşına düşən Ümumi Milli Məhsul, ev təsərrüfatlarının gəliri, əmək haqqı səviyyəsi, dövlətin həyata keçirdiyi sosial yönümlü tədbirlər, inflyasiya, indeksləşdirmə, yoxsulluq səviyyəsi və s. mühüm rol oynayır.

İstehlakla bağlı təhlil aparılarkən başlıca meyar onun artımına yönəlmiş faktorları müəyyən etmək və mövcud problemləri aradan qaldırmaqla istehlakı lazimi səviyyəyə çatdırmaq hesab olunur.  İqtisadi maraqlar və davamlı iqtisadi inkişafı təmin etmək məqsədilə istehlak nisbətini artırmaq ən mühüm meyar kimi qiymətləndirilir. Aktual məsələlərdən biri əhalinin istehlak qabiliyyətinin az olmasıdır, bu da əgər əmək qabiliyyətli əhalinin əmək haqqının “Minimum istehlak səbəti”ndən az olarsa yoxsulluq faizinin çox olması deməkdir.

İsteklakın həcmini tənzimləməklə dövlət aztəminatlı təbəqənin gəlirini yüksəltmək məqsədilə iqtisadi modelini həyata keçirir. Bu isteklak natarazlıqlarının əsasən iki səbəbi vardır: struktur problemi və pulun yığılması nəticəsində gəlir bölgüsündə əmələ gələn qeyri-tarazlıqlar ilə bağlıdır. Əhalinin ictimai xərclərinin artırılması problemlərin müvəqqəti həlli hesab oluna bilər, lakin məsrəf infyasiyasına gətirib çıxarır, buna staqflyasiya deyilir. Əhalinin gəlir səviyyəsinin artması paralel şəkildə istehlakın artmasına səbəb olur, hansı ki, bu metodla istehlak xərcləri bazarda tarazlıq yaradır.

Əhali istehlakını təhlil edən zaman burada əhalinin öz gəlirliyini necə qiymətləndirdiyi əsas götürülür, burada əsas faktor gəlirin hansı formada istifadəsi deyil, onun minimum yaşayış üçün tələb olunan miqdarına uyğun olaraq yaşayış normasını necə tənzimlədiyi əsas götürülür, yəni az gəlirli əhali təbəqəsinin istehlakı əsasən gündəlik yaşayış vasitələrinə çəkilən xərclərdir və onlar yığım üçün vəsait ayıra bilmir. Digər tərəfdən, yüksək gəlirli əhali təbəqəsi gəlirlərinin böyük bir qismini yığıma ayırır, bu da bazar iqtisadiyyatı nöqteyi-nəzərdən baxsaq, pulun likvidliyinə təsir edən amildir, yəni yığıma meyilliliyin çox olması dövriyyədə olan pul vəsaitinin həcmini azaldır, qiymətlərin artmasına və istehlakın həcminin azalmasına səbəb olur.

İstehlak sferasının tədqiqi ilk öncə şəxsi istehlakın, yəni əhalinin əmtəə və xidmətlərin əldə edilməsinə sərf etdiyi pul gəlirlərinin, yeyinti məshulları, geyim, ayaqqabı, parça, mədəni-məişət məqsədli predmetlərə, yanacağa, elektrik enerjisinə sərf etdiyi xərclərin, ictimai nəqliyyət xidmətlərinin, kommunal-yaşayış təsərrüfatının, məişət sferasının və s. xərclərinin analizinə əsaslanır.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi.** Dünyada əhalinin gəlirlərinin qorunması məqsədilə çox zaman inflyasiya proseslərindən müdafiənin müxtəlif metodlarından istifadə edilir. Bunlardan ən inkişaf etdirilmiş metod qiymət və tariflərin artmasından dolayı yaranan xərcləri kompensasiya etməklə, əhalinin pul gəlirlərinin artırılmasına yönəldilmiş gəlirlərin indeksləşdirilməsi hesab edilir. Vətəndaşların sosial müdafiəsinin belə forması, hər şeydən öncə, sosialyönümlü bazar tipinə əsaslanan iqtisadiyyatın olduğu dünya ölkələrində öz əhəmiyyətini və mühümlüyünü sübuta yetirmişdir. Bu problemlərin öyrənilməsində Bu problemlərin öyrənilməsində İmanov C.Q. Həsənli Y.H. O.Q. Məmmədli, N.Ə.Cavadov, X.N.Cavadzadə, Azərbaycanlı alimlərdən başqa bu mözvu ilə bağlı Beck T., Lundberg M., Majnoni G. və başqalarının əsərlərindən, məqalələr və digər akademik qaynaqalardan problemlər təhlil və tədqiq olunmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin aktuallığı onun məqsəd və vəzifələrini formalaşdırır. Tədqiqat işinin məqsədi müasir dövrdə bazar iqtisadiyyatı şəraitində əhalinin istehlakına təsir edən amillərin araşdırılması, əhali gəlirliliyinin

öyrənilməsi, büdcəsi nümunəsi əsasında əhalinin istehlak fondları, əsas ərzaq məhsulları istehlakının öyrənilməsi, əhalinin istehlakının və istehlak qiymətlərinin öyrənilməsində riyazi-iqtisadi metodların tətbiqi və Azərbaycanda əhalinin gəlir və istehlakının proqnozlaşdırılmasından ibarətdir.

Əhali istehlakının makroiqtisadi göstəricilər sistemi vasitəsilə öyrənilməsi, onun riyazi-iqtisadi modellərlə, eyni zamanda iqtisadi artım modeli ilə qiymətləndirilməsi və bu tədqiqatın istehlakın indeksləşdirilməsi və proqnozlaşdırılmasına təsirini müəyyən etmək tədqiqat işinin əsas məqsədini formalaşdırır. Tədqiqatın məqsədi qarşıya qoyulmuş uyğun vəzifələr əsasında həyata keçirilir ki, bunlar aşağıdakılardır:

- Əhali istehlakının öyrənilməsində və araşdırılmasında gəlirlərin başlıca rolunu müəyyən etmək və asılılıq modellərini araşdırmaq;
- Əhali gəlirlərinin düzgün bölüşdürülməsinin istehlaka təsirini müəyyən etmək və Ümumi Milli Gəlir səviyyəsində təhlil etmək;
- İqtisadi səmərəlilik nöqteyi-nəzərdən bazarda əhali gəlirliliyinin həcminə təsir edən amilləri müəyyən etmək (marjinal istehlak əyrisi nümunəsində);
- İS-LM modelini tətbiq etməklə əhalinin istehlaka meyilliliyini araşdırmaq;
- İstehlak artımının inflyasiyaya təsirini müəyyən etmək;
- Azərbaycanda əhalinin gəlir və istehlakının indeksləşdirilməsi məsələsini araşdırmaq
- İstehlakın proqnozlaşdırılması üçün lazım olan modelin qurulması

**Tədqiqatın obyekti və predmeti** Azərbaycanda əhali istehlakının mövcud statistik göstəricilərini həyata keçirən qurumlar təşkil edir. Tədqiqatın predmeti isə əhali istehlakının müəyyən edən və ona təsir edən amillərin araşdırılması zamanı tətbiq olunan riyazi-iqtisadi modellər təşkil edir.

**Tədqiqatın metodları.** Dissertasiyanın işlənməsində sistematik və müqayisəli və amilli təhlil mexanizmlərindən, o cümlədən, riyazi-statistik, analiz və sintez, tarixi, həmçinin də induksiya-deduksiya metodlarından istifadə olunmuşdur.

**Tədqiqatın informasiya bazası.** Tədqiqat işinin nəzəri metodoloji əsasını Azərbaycan Respublikasının Konsititusiyası, Azərbaycan Respublikası

Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikasının Dövlət Proqramları, Azərbaycan Respublikasının Statistika Komitəsinin hesabatları, jurnal, qəzet materialları, müsahibələr və s. təşkil edir. Tədqiqat işində iqtisadi-riyazi, dinamik model, iqtisadi artımla əlaqə modeli, indeksləşdirilmə və s. tətbiq olunmuşdur.

**Tədqiqatın məhdudiyyətləri.** Tədqiqatın aparılmağına əngəl olan nəzəri-metodoliji çatışmazlıqlar, yetərli informasiya bazasının olmamağı və s.

**Dissertasiya işinin elmi və pratiki əhəmiyyəti:** Dissertasiya işindəki elmi yeniliklər aşağıdakılardır:

- Statistik göstəricilər əsasında Azərbaycanda illər üzrə əhalinin istehlakının ev təsərrüfatlarında ayda adambaşına düşən istehlak xərclərinə təhlili;
- İstehlak cəmiyyəti cəhətdən inkişaf etmiş ölkələr üzrə ÜDM-in illik göstəricilərinin faiz nisbəti ilə istehlak və istehsal faiz göstəricilərinin Azərbaycan Respublikasında ÜDM-in son illər artım göstəricilərinə uyğun müqayisəli təhlili;
- İstehlak xərclərinin formalaşdırılmasının riyazı üsullarla təhlili və proqnozlaşdırılması

Tədqiqat işinin nəzəri və praktiki əhəmiyyəti. Tədqiqat işində əhalinin istehlakının son on illik göstəricilər əsasında təhlili və istehlak xərclərinin proqnozlaşdırılması ilə bağlı məsələlər praktik cəhətdən əhəmiyyətli hesab oluna bilər.

**Dissertasiya işinin həcmi və strukturu** Dissertasiya işi giriş, üç fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısından, cədvəl, şəkil, qrafik siyahısından ibarət olmaqla 92 səhifədən ibarətdir. Dissertasiya işinin daxilində 5 cədvəl, 4 qrafik, 4 şəkil verilmişdir.

Nəticə hissəsində yekun olaraq dissertasiya işində tədqiq edilən məsələlərə dair qısa məzmun göstərilmişdir.

Dissertasiya işinin sonunda ədəbiyyat siyahısı yer almışdır.

# I Fəsil ƏHALİ İSTEHLAKININ QİYMƏTLƏNDİRİLMƏSİNİN NƏZƏRİ-KONSEPTUAL ƏSASLARI

## 1.1. Əhali istehlakının qiymətləndirilməsində əsas anlayışlar

İstehlak anlayışı bir- biri ilə ayrılmaz əlaqədə olan istehsal, bölgü, mübadilə və istehlak prosesinə daxil olan bir iqtisadi həlqəni yaradır. Mövcud cəmiyyətdə, bazar iqtisadiyyatı şəraitində bazarın qiymətləndirilməsi, tələb-təklif meyarlarının ölçülməsi çox mühüm məsələni əhatə edir. Belə ki, bazarın tələblərinə uyğun ölçüdə məhsul istehsalı, əhalinin gəlirlərinin bölgüsü, onların istehlak normalarının qarşılanmasının iqtisadi tənzimlənməsi bazar qanunları vasitəsilə həyata keçirilir. Bazar qanunları dedikdə, tələb təklif, qiymət, rəqabət anlayışlarının vəhdəti başa düşülür ki, bunlar bazarın qarşılıqlı əlaqə mexanizmini yaradır. Bu mexanizmdə istehsal tərəfdən təklif, istehlak tərəfdən isə tələb çıxış edir, onlar bazarın proporsiyası baxımından daima iqtisadi tarazlıq vəziyyətində olmalıdır. Bu tənzimlənmə kortəbii şəkildə bazar mexanizmi tərəfindən, ya da məqsədli şəkildə dövlətin tənzimləmə qanunları vasitəsilə tarazlıqda saxlanılır. Dövlət gəlirlərin tənzimlənməsini birbaşa və dolayı yollarla həyata keçirir.

Dövlət əhali gəlirlərinin tənzimlənməsini sosial-ədalət prinipinə əsaslanaraq tənzimlənmə siyasəti ilə gəlirlərin bölgüsü və yenidən bölgüsünü həyata keçirir. Gəlirlərin bölgüsü və yenidən bölgüsü cəmiyyətin davamlı inkişaf prosesində tələb və təklifi nizamlamaqla, əhalinin istehlakının idarə edilməsində əsas nüans hesab olunur.

Məlum məsələdir ki, əhalinin istehlakı birbaşa gəlirlərdən asılıdır. Əhali istehlakına təsir göstərən bir-biri ilə əlaqəli proseslərdən biri bölgü prosesidir, hansı ki, məhsul istehsalında iştirak edən təsərrüfat subyektlərinin payını müəyyən edir.

Gəlirlər mənsubiyyətindən asılı olmayaraq hər bir subyektin bazar fəaliyyətinin son məqsədi olaraq makroiqtisadi səviyyədə formalaşır, cəmiyyətin inkişafında əhəmiyyətli rol oynamaqla onun maliyyə əsasını, istehsalın genişlənməsi və tələbatların ödənilməsini funksiyalarını özündə saxlayır (Мамедова О.Ю., Ростов на Дону; s.543).

Gəlirlər bazar subyekinin fəaliyyəti nəticəsində müəyyən dövr ərzində əldə olunan, dövlət mexanizmləri vasitəsilə yenidən bölgü mexanizmi olan pul vasitəsilə ölçülür. Fikrimizcə, bazarda tələb və təklif qanununa gəlirlərin formalaşma obyekti kimi baxmaq məqsədəuyğundur. Ancaq burada iqtisadi maraqların qorunması dövlət tənzimlənməsi yolu ilə həll edilməlidir. Gəlirlərin məqsədyönlü fəaliyyətinin bazar meyarı, habelə sosial qruplar, ayrı-ayrı sahibkarlarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin əsas fəaliyyət məqsədi, istiqamətidir. İstehlak və xərc meyarı gəlirlərin formalaşmasının əsas hissəsidir və istehlak mənfəətyönümlü sahibkarlıq fəaliyyəti üçün gəlirlərin artmasını formalaşdıran başlıca amildir. Belə ki, dolayı yolla istehlak anlayışı bir-birilə əlaqəli sistemin bir hissəsi olduğundan liberal bazar şəraitində istehlakın artması istehsalın artmasına, yəni dövrü iqtisadi həlqəni yaradır, dolayı yolla gəlirlərin artıran əsas meyar kimi çıxış edir. (Şəkil 1.)

**Şəkil 1. İstehlakın formalaşması.**




**Mənbə. "**Современная Экономика" Мамедова О.Ю., dərslik

Məntiqi sxem kimi son nəticədə istehlakın səmərəli təşkili üçün istehsal gəlirlərinin idarə edilməsinə komplex və sistemli idarəetmə mexanizmi kimi yanaşmağı tələb edir.

Gəlirlərin paylanması əhali qruplarının daha səmərəli fəaliyyətinə səbəb olur, gəlirlərin əmək məsrəflərinə, ictimai dəyərinə əsasən formalaşması və dinamikası davamlı və dayanıqlı inkişafı, gəlirlərin sosial-iqtisadi məzmununu təmin edir. Bu səbəbdən dövlət əhali gəlirlərini dövlətin iqtisadi funksiyasını və rolunu tənzimləmək məqsədilə əsas prioritet kimi maddi-maliyyə əsasını formalaşdırır, gəlirlərin artması birbaşa investisiya, əhalinin həyat səviyyəsi, yoxsulluq, gənc nəslin elm-mədəni səviyyəsinin artmasına yönəlmiş tədbirlərin reallaşmasına birbaşa təsir edir. S.S.Ştallinin fikrincə, gəlirlər "geniş istehlak" strukturu və onun ödənilməsi imkanlarına uyğun olaraq müəyyən edilir və proqnozlaşdırılır (Шаталин Е.С. 1980, c.51).

İstehlakın forma və strukturu proporsional olaraq gəlirlərin forma və strukturu ilə tarazlaşır, natural istehlak dəyəri həm gəlirdə, həm də istehlakda pul ifadəsi ilə deyil, məcmu gəlir ifadəsi ilə əks olunur. Məcmu gəlir anlayışı geniş istehlak davranışını daxil etməklə məcmu tələbatın ödənilməsinin maddi əsasını müəyyən edir. Bu səbəbdən təkcə pul şəklində olan və bölgü məqsədli məhdudlaşan xalis gəlirləri deyil, həmçinin geniş təkrar istehlakı təmin edən və aralıq istehsal prosesində natura formasında istehlak edilən maddi və mənəvi dəyərləri də nəzərə alırıq. Məhz bu aspekdən yanaşdıqda, kəmiyyət baxımından gəlirlər Ümumi Daxili Məhsulun istehsal təyinatlı və istehlak üçün ayrılan hissəsinin gəlirlərdən çox olması hesabına baş verir. Bu baxımdan Ümumi Daxili Məhsul, əhali istehlakı və sosial müdafiəsi məqsədi ilə aynlan vəsaitlərin məcmusu, istehlak təyinatlı məqsədlər və büdcədən ayrılan xərclər hesabına əhaliyə təmənnasız göstərilən xidmətlər məcmu gəlirlərin tərkib hissəsidir.

Ümumiyyətlə, əhali gəlirlərinin bölgüsü, istehsal və istehlak əlaqəli proses olmaqla bütün iqtisadi insititutların (klassiklər, neoklassiklər, liberalistlər, neoliberalistlər, keynsçilər, neokeynsçilər) diqqət mərkəzində olmuşdur (Azərbaycanın statistik göstəriciləri, 2017, s.35). Bu münasibətləri ilk dəfə klassik məktəbin nümayədələrindən olan A.Smitt, David Rikardo, Ceyms Mill təhlil etmişdir. Klassik məktəbin nümayəndələrinin fikrincə, əhali gəlirləri torpaq sahibləri, kapitalistlər və fəhlələrin arasında bölünür və bu sinfi bölgü əmək haqqı, mənfəət, renta şəklində özünü göstərir. Klassik məktəbin nümayəndələrindən biri olan A.Smitt gəlirin istehsal prosesində yaranmasını və onun bölgüsünün bazarın ixtiyarına buraxıldığı, bu prosesin vergi və rüsüm vasitəsi ilə həyata keçirildiyi fikrini irəli sürmüşdür. A.Smittdən sonra David Rikardo gəlirlərin bölgüsü konsepsiyasını daha dərindən işləmiş, sonralar Karl Marks, C.B.Klark, K.Vizer, A.Pique, Con M.Keyns, İ.Şumpeter və başqaları yenidən təhlil etmişlər (Quliyev F.T. Gəlirlər nəzəriyyəsi. 2004, s.22).

Bugünə qədərki nəzəriyyələrdə bölgü prosesinə 2 aspektdə yanaşılmışdır:

- istehsal amillərinə görə, gəlirin daha artıq əldə edilməsi məqsədilə minimum məsrəflərdən istifadəni təmin edən sahələrarası bölgü:

- istehsalın nəticələrini müəyyən edən məhsulun sahibkarlıq fəaliyyəti üzrə bölgüsü. Bu bölgü uyğun olaraq sahibkarlıq gəlirləri, şəxsi mənfəət, renta, əmək haqqı, transfer, pensiya və s. uyğundur.

İqtisadi səmərəlilik nöqteyi-nəzərdən  bazar iqtisadiyyatı şəraitində istehsal faktorları və ona uyğun olaraq gəlirlərin bərabər bölünməsi ictimai rifah nəzəriyyəsində Pareto teoremi kimi qeyd olunur. Belə ki, bu teoremə əsasən, resursların bölgüsü elə səmərəli formada bölüşdürülməlidir ki, bir iqtisadi subyektin vəziyyətinin yaxşılaşdırılması, digər iqtisadi subyektin vəziyyətini pisləşdirməsin.

Məlumdur ki, əhalinin istehsak səviyyəsi gəlirlərin həcmindən asılıdır. (Yoxsulluğun Azaldılması və İqtisadi İnkişafı üzrə Dövlət Proqramı (2004-2008-ci illər) Bakı, 2004).

Milli hesablar sisteminə görə, əhalinin şəxsi sərəncamında qalan gəlir real bölüşdürmə və qiymət nəzərə alma prinsipinə əsasən əhalinin şəxsi gəlirindən vergilər və digər məcburi ödənişlər, könüllü olaraq ictimai təşkilatlara ödəmələr çıxıldıqdan sonra qalan nominal gəlirdir. Əhali gəlirlərinin strukturunu müəyyən etmək və şəxsi sərəncamda olan gəlirlərin həcmini ölçmək üçün gəlirlərin alıcılıq qabiyyəti göstəricilərindən istidafə olunur.

Əhalinin şəxsi sərəncamında qalan gəlirinin səviyyəsi, istehlaka sərf olunan hissəsi, yenidən istehsal prosesinə qoyulan yatırımlar, differensiasiya dərəcəsi və s. əhalinin ümumi rifah halının göstəricisidir və cəmiyyətin sosial-iqtisadi transformasıyasını müəyyən edir. Bazarın gəlirlə bağlı əsas məqsədi, bazar strategiyasının əsas prinsipi varlı təbəqənin hamıya aid olmasının mümkünsüzlüyü və kasıb təbəqənin mümkün qədər az olmasından ibarətdir. Bununla əlaqədar dövlət yoxsulluqla bağlı siyasət yeridir və müvafiq qanunlar, dövlət proqramları, layihələr həyata keçirir.

Ümumiyyətlə, əhalinin məşğulluğunun artması sosial-iqtisadi nöqteyi nəzərdən ictimai vəziyyətin yaxşılaşmasına, istehsal amillərindən və resurslardan düzgün istifadə nəticəsində məhsul istehsalının artımına, gəlirlərin bərabər səviyyədə bölgüsünün həyata keçirilməsinə, istehlakın artmasına səbəb olur ki, iqtisadi nöqteyi nəzərdən bu sistem zəncirvari və dövri olaraq həyata keçirilir.

(Məşğulluq haqqında Azərbaycan Respublikasının Qanunu. Məşğulluq haqqında normativ sənədlər toplusu. Bakı, 2002).

Beləliklə, əhali gəlirlərinin ölçülməsində il ərzində istehsal olunan adambaşına düşən Ümumi Milli Məhsul, ev təsərrüfatlarının gəliri, əmək haqqı səviyyəsi, dövlətin həyata keçirdiyi sosial yönümlü tədbirlər, inflyasiya, indeksləşdirmə, yoxsulluq səviyyəsi və s. mühüm rol oynayır.

Son illərdə dünyada baş verən qlobal inflyasiya bir çox ölkələrə istehlak problemləri və ifrat istehsal problemləri yaratmaqla yadda qaldı, iqtisadi disproporsiyaların pozulmasına, tələb-təklif əlaqələri, o cümlədən istehsal, satış, mübadilə və istehlak əlaqələrinin pozulması ilə nəticələndi ("Yaşayış minimumu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 dekabr tarixli 170 nömrəli Fərmanı). Tətbiq olunan iqtisadi modellər mahiyyət etibarilə istehsal prosesinə yönəlmiş və istehlakı nəzərə almaması nəticəsində istehsal prosesində artıqlıq müşayiət olunmuşdur. İqtisadi disproporsionallıq şəraitində pulun müəyyən əllərdə yığılması gəlir bölgüsündə natamamlılığın olmasını isteklaka ciddi təsir göstərir. Müasir dövrdə sürətli texnoloji avadanlıqların istehsala tətbiqi ilə əlaqədar məhsul istehsalı artaraq davam etdiyi halda, əksinə, istehlak bu tələbi ödəyə bilmir və bu bazarın tarazlıq şəraitini pozur.

İstehlakla bağlı təhlil aparılarkən başlıca meyar onun artımına yönəlmiş faktorları müəyyən etmək və mövcud problemləri aradan qaldırmaqla istehlakı lazimi səviyyəyə çatdırmaq hesab olunur. İqtisadi maraqlar və davamlı iqtisadi inkişafı təmin etmək məqsədilə istehlak nisbətini artırmaq ən mühüm meyar kimi qiymətləndirilir. Aktual məsələlərdən biri əhalinin istehlak qabiliyyətinin az olmasıdır, bu da əgər əmək qabiliyyətli əhalinin əmək haqqının "Minimum istehlak səbəti"ndən az olarsa yoxsulluq faizinin çox olması deməkdir. (Minimum əmək haqqı haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 2004).

İsteklakın həcmini tənzimləməklə dövlət aztəminatlı təbəqənin gəlirini yüksəltmək məqsədilə iqtisadi modelini həyata keçirir. Bu isteklak natarazlıqlarının əsasən iki səbəbi vardır: struktur problemi və pulun yığılması nəticəsində gəlir

bölgüsündə əmələ gələn qeyri-tarazlıqlar ilə bağlıdır. Əhalinin ictimai xərclərinin artırılması problemlərin müvəqqəti həlli hesab oluna bilər, lakin məsrəf infyasiyasına gətirib çıxarır, buna staqflyasiya deyilir. Əhalinin gəlir səviyyəsinin artması paralel şəkildə istehlakın artmasına səbəb olur, hansı ki, bu metodla istehlak xərcləri bazarda tarazlıq yaradır. ("Yaşayış minimumu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 dekabr tarixli 170 nömrəli Fərmanı).

Müəyyən bir dövrdə milli gəlirlərin artması eyni ilə istehlak artıqlığına səbəb olacağını söyləmək olmaz, yəni ümumi gəlirin artımı, yüksək əhali təbəqəsinin gəlir qrupuna məxsusdursa, o zaman müəyyən bir əhali qrupunun istehlakı artmış olar ki, bu da ümumi yanaşmada rifahı artırmaz. Bu səbəbdən aşağı gəlirli əhali qrupunun iqtisadi gəlirliyinin artması ümumi rifaha təsir edən faktor kimi götürülür. İstehlak iqtisadi nöqteyi-nəzərdən əhali istehlakı və investisiya olmaqla iki yerə bölünür.

Əhali istehlakını təhlil edən zaman burada əhalinin öz gəlirliyini necə qiymətləndirdiyi əsas götürülür, burada əsas faktor gəlirin hansı formada istifadəsi deyil, onun minimum yaşayış üçün tələb olunan miqdarına uyğun olaraq yaşayış normasını necə tənzimlədiyi əsas götürülür, yəni az gəlirli əhali təbəqəsinin istehlakı əsasən gündəlik yaşayış vasitələrinə çəkilən xərclərdir və onlar yığım üçün vəsait ayıra bilmir. Digər tərəfdən yüksək gəlirli əhali təbəqəsi gəlirlərinin böyük bir qismini yığıma ayırır, bu da bazar iqtisadiyyatı nöqteyi-nəzərdən baxsaq, pulun likvidliyinə təsir edən amildir, yəni yığıma meyillilik çox olarsa, bu zaman dövriyyədə olan pul vəsaitinin həcmi azalar, qiymətlər artar və istehlakın həcmi azalar (Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı (2004-2008-ci illər). Bakı, 2004).

Normal şəraitdə gəlir səviyyəsinin miqdarının artması marjinal istehlak əyrisinin mailliyinin azalmasına səbəb olur, lakin müəyyən bir gəlir səviyyəsinə çatana qədər marjinal istehlak öz maili stabilliyini qoruyur.

Marjinal istehlak əyrisində marjinal istehlakın azaldığı yer qənaətin başlandıc nöqtəsi hesab edilir. Marjinal qənaət nöqtəsindən aşağıda qalan hissədə gəlirlərin istənilən səviyyəyə çatması üçün maliyyə miqdarının hesablanması

məqsədəuyğundur və gəlirin müəyyən həddə çatması eyni nisbətdə istehlakın artımına səbəb olacaq.

### 1.2. Əhali istehlakı haqqında informasiya mənbəyi

Əhali istehlakının müəyyən olunması hər bir ölkənin sosial-iqtisadi qurumları tərəfindən aparılır və tənzimlənir. Azərbaycan Respublikasında Azərbaycan Respublikasında minimum istehlak səbətinin tərkibinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasi Nazirlər Kabinetinin Qərarına əsasən "Yaşayış minimumu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 dekabr tarixli 170 nömrəli Fərmanı icra olumuşdur. ("Yaşayış minimumu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 dekabr tarixli 170 nömrəli Fərmanı). "Yaşayış minimumu haqqında" qanunda Azərbaycan Respublikasında minimum istehlak səbətinin tərkibinin təsdiqi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Maliyyə Nazirliyi, Səhiyyə Nazirliyi, Dövlət Statistika Komitəsi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, dövlət elmi müəssisə və təşkilatları, qeyri-hökumət təşkilatları ilə birlikdə minimum istehlak səbətinin tərkibini üç ildə bir dəfə yenidən müəyyənləşdirərək təkliflərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilməli olduğu, İqtisadiyyat Nazirliyi və Dövlət Statistika Komitəsi Azərbaycan Respublikasında minimum istehlak səbətinin formalaşdırılması və yaşayış minimumunun hesablanması metodikasını hazırlayıb müvafiq icra hakimiyyəti orqanları ilə razılaşdıraraq təsdiq etməli olduğu, Dövlət Statistika Komitəsi Azərbaycan Respublikasında minimum istehlak səbətinin tərkibinin dəyərini hesablayıb ildə 1 dəfə rəsmi dövlət nəşrlərində dərc olunmasını təmin etməli olduğu əks olunmuşdur (Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı, 2004).

Bazar iqtisadiyyatına keçid mərhələsində əhalinin, xüsusən ən aztəminatlı vətəndaşların sosial müdafiəsini gücləndirmək üçün bir sıra kompleks tədbirlərin həyata keçirilməsi tələb olunur.

İndiki şəraitdə əhalinin sosial təminatı həyat səviyyəsinə dair sosial normativlər əsasıda, ən əvvəl minimal istehlak büdcəsi bazasında qurulmahdır. Minimum istehlak büdcəsi dedikdə - insanın əsas fizioloji və sosial- mədəni ehtiyaclarma müvafiq olaraq, onun ərzaq və qeyri-ərzaq mallarına, eləcə də müxtəlif xidmətlərə minimal tələbatının natura və dəyər formasında ifadəsi nəzərdə tutulur. Minimum istehlak büdcəsinin dəyər şəklində kəmiyyəti cəmiyyətdə qərarlaşmış istehlak səviyyəsində aynca bir fərdin və ya ailənin həyat fəaliyyətini təmin edən qida məhsullarmm və qeyri- ərzaq mallarının əldə edilməsi və xidmətlərdən istifadə edilməsi ilə bağlı minimal tələbatı ödəmək üçün zəruri məsrəflər səviyyəsi deməkdir.

**Cədvəl 1. Azərbaycan Respublikasında minimum istehlak səbətinin tərkibi**

| Sıra №-si | Ərzaq məhsulları (kq-la illik) | Əmək qabiliyyətli əhali | Pensiyaçılar | Uşaqlar 0-15 yaş |
|---|---|---|---|---|
| 1. | Çörək və çörək məhsulları (una çevirməklə) | 136.8 | 107.9 | 100.5 |
| 2. | Kartof | 54.8 | 40.2 | 42.0 |
| 3. | Tərəvəz və bostan məhsulları | 97.2 | 85.2 | 100.7 |
| 4. | Meyvə və giləmeyvə | 38.0 | 32.0 | 76.0 |
| 5. | Ət və ət məhsulları | 32.9 | 25.6 | 29.6 |
| 6. | Süd və süd məhsulları (südə çevirməklə) | 223.6 | 233.8 | 258.6 |
| 7. | Balıq və balıq məhsulları | 7.7 | 6.8 | 8.0 |
| 8. | Yumurta (ədəd) | 150 | 100 | 183 |
| 9. | Şəkər və qənnadı məmulatları | 16.9 | 15.8 | 19.7 |
| 10. | Bitki yağı, marqarin və digər piylər | 10.9 | 8.4 | 7.0 |
| 11. | Kərə yağı | 7.0 | 5.8 | 6.0 |
| 12. | Digər məhsullar | 4.7 | 3.3 | 4.0 |

**Mənbə:** Statistika Komitəsinin 2017-ci il üçün rəsmi göstəriciləri əsasında müəllif tərəfindən hazırlanmışdır.

Minimum istehlak büdcəsi.

Adından da bəlli olduğu kimi minimum istehlak büdcəsi minimum gəlirə malik olan əhali qrupunun həyat dəyərini, tələbatını müəyyən etməyə imkan verən bir sənəddir, balansdır. Burada ən vacib, həyatı əhəmiyyət kəsb edən, minimum tələbata xidmət edən istehlak məhsullarının, xidmətlərin sosial normativləri nəzərdə

tutulur. Minimum istehlak büdcəsi mövcud qaydaya görə işləyənlərin və qeyri əmək qabiliyyətli əhalinin iş qüvvəsinin normal təkrar istehsaiı və normal həyat fəaliyyətini təmin etmək üçün nəzərdə tutulan normativ istehlak büdcəsinin, maddi nemətlər və xidmətlərin pulla ifadəsidir.

Lakin bizcə burada "normal" anlayışı bir o qədər real səslənmir. Minumum istehlak büdcəsi istər makro və istərsə də mikro baxımdan bir sıra prinsipal problemlərin həllini tələb edir:

1. Yaşayış minimumu ilə minimum əmək haqqı arasındakı optimallığı. Hal-hazırda minimum əmək haqqı yaşayış minimumu arasında təzadlar artmaqdadır, birinci ikinciyə-xidmət etmək funksiyanı itirmişdir ("Yaşayış minimumu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 dekabr tarixli 170 nömrəli Fərmanı).

Yaşayış minimumu ilə orta əmək haqqı arasmdakı nisbət məsələsi. Hətta orta əmək haqqımn artması yaşayış minimumunu təmin edə bilmir.

2. İnflyasiyanın artması nəticəsində yaşayış minimumunun minimum əmək haqqını bir neçə dəfə qabaqlaması (xüsusilə iqtisadi islahatların ilk illərində).

3. Əhalinin, işçilərin əmək haqqı, sosial transferlər ve digər yol- larla minimum gəlirlər əldə etməsinin təmin etmə.

4. Minimum gəlirlərə malik olan əhali qruplarının həyat dəyərinə təsir edən amillərin müəyyən olunması ("Yaşayış minimumu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 dekabr tarixli 170 nömrəli Fərmanı).

Regional siyasətin ədalətlilik prinsipi üzərində qurulması üçün hər bir regionda əhalinin maddi rifah və həyat səviyyəsinin vəziyyəti, o cümlədən ÜDM-in artım sürəti, adambaşına düşən səviyyəsi, istehsal və istehlak arasında bölgüsü, əmək haqqının, ictimai istehlak fondlarının gəlirlərin vəziyyəti və s. öyrənilməlidir. Belə ki, ədalətlilik regional siyasətin elə yanaşma formasını nəzərdə tutur ki, ölkədə eyni dövrdə nəzərdə tutulan ümumi rifaha çatmaq üçün bütün regionların əhalisi eyni imkana malik olmalıdır (məşğulluğun təmin olunması, əmək haqqının səviyyəsi, sosial infrastruktur və s.).

Dövlət investisiyaları hesabına yaradılan infrastruktor obyektləri bütün ölkə miqyasında sənayenin və kənd təsərrüfatının inkişafına müsbət təsir göstərir. Azərbaycanın məqsədyönlü investisiya siyasətində öz növbəsində özəl bölmənin maliyyə təminatının artırılması sayəsində ölkədə güclü sahibkarlıü sinfi formalaşıb. Son 13 ildə Respublikamızda məşğulluqda və vergi daxilolmalarında özəl bölmənin çəkisi 70%-i ötüb. Ölkəmizdə sahibkarlıq subyeklərinin sayı 2004-cü il ilə müqayisə 2,5 dəfə artıb.

Qiymətlərin formalaşdırılmasının ümumi prinsipləri tamamilə istehlak mallarına tətbiq oluna bilərlər. Lakin bu kateqoriyadan olan əmtəələrin xüsusiyyətləri çoxəsrlik ticarət təcrübəsindən irəli gələn və öz səmərəliliyini sübut etmiş bir sıra spesifik metodlardan istifadə olunmasını tələb edir. (Abbasov A.F.,2002, s,34).

Qiymət ayrı- seçkiliyinin miqyasının tənzimlənməsi. Ticarət ilk öncə alıcı və satıcı arasında alqı-satqı sövdələşməsinin razılaşdırılması zamanı qiymət səviyyəsinə münasibətdə mübahisədir. Lakin bu, alıcıların «danışıq aparmaq ustalığı»ndan asılı olaraq eyni bir əmtəəyə müxtəlif qiymətlərin mövcudluğu imkanları deməkdir. İqtisadi nəzəriyyə nöqteyi-nəzərindən alıcıların qiymət ayrıseçgiliyi adlandırılan bu təcrübə tələbin qiymət üzrə müxtəlif fərdi elastikliklərində öz əsaslarına malikdir. Ardıcıl olaraq tələb elastikliyindəki bu fərqlərə uyğunlaşma, satıcılara əmtəəni daha çoxlu sayda alıcılara satmaq imkanı yaradır.

Azərbaycan Respublikasında qəbul olunan və həyata keçirilən proqramların əksəriyyəti sosial xarakter daşıyır və əsasən əhalinin rifah halının yaxşılaşdırılmasına istiqamətlənmişdir.

“2003-2005-ci illər üçün “Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı”, “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı üzrə Dövlət Proqramı (2002-2005-ci illər)”, “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)”, “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı II Dövlət Proqramı” (2009-2013-cü illər), “Azərbaycan Respublikası

regionlarının sosial-iqtisadi inkişafı III Dövlət Proqramı” (2014-2018-ci illər) və s. qəbul olunmuş proqramlar, strategiyalar əsasən sosial sahələr prioritet göstərilməklə tətbiq olunmuşdur.

Əhalinin gəlirləri və xərcləri haqqında başlıca məlumat mənbələri dövlət və təsisat statistikasının verilənləri hesab edilir.

Dövlət statistikası əmək və əmək haqqı ödənişləri haqqında hesabatları təqdim edən ev təsərrüfatlarının və iri və orta firmaların seçmə tədqiqatlarının aparılması nəticəsində əhali və ev təsərrüfatları haqqında bilavasitə informasiyanı toplayır. Bundan əlavə iqtisadiyyatın bəzi sahələri üzrə əmək haqqı gecikmələrinin dövrü tədqiqatları, həmçinin firmaların seçimi üzrə əmək haqqının differensasiyasının tədqiqi aparılır.

Təsisat statistikası təsisat heabatlılığı əsasında əhaliyə ödənilən ödənişlər, bu ödənişlər əsasında ödəmələr haqqında informasiyanı ümumiləşdirir. Bu verilənlərə aşağıdakılar aid edilir:

– Maliyyə təşkilatları haqqında informasiyanı ümumiləşdirən və AR Mərkəzi Bankı tərəfindən qurulan əhalinin pul gəlirləri və xərcləri balansı;

– DSMF tərəfindən təqdim olunan ödənilmiş pensiyalar və müavinətlərin həcmi haqqında verilənlər;

– əhalinin bəyanat verdiyi gəlirlərin həcmi və onlardan tutulan vergilərin AR Vergilər Nazirliyinə ödənişlərinin həcmi.

Əhalinin gəlirləri və xərclərinin öyrənilməsi zamanı başlıca məsələlər aşağıdakılardan ibarətdir:

- əhalinin və ev təsərrüfatlarının gəlir və xərclərinin həcmi və tərkibinin xarakteristikası;
- pul gəlirlərinin və istehlakın differensasiyasının analizi;
- pul gəlirlərinin dinamikasının tədqiqi;
- əhalinin gəlir, xərcləri və istehlakının modelləşdirilməsi;
- gəlirlərin (xərlcərin) istehlaka və digər sosial-iqtisadi göstəricilərə təsirlərinin tədqiqi.

Bazar iqtisadiyyatı şəraitində bazarın inkişafının başlıca amillərindən biri kimi əhalinin ödəniş qabiliyyətinin öyrənilməsi ehtiyyacı artır. Lakin gəlir mənbələrinin çoxluğundan, "kölgə" iqtisadi fəaliyyətində olan nəzərə alınmayan gəlirlərdən dolayı, həyata keçirilən fəaliyyətin müddəti və ödənişi arasında fərqə görə, həmçinin gəlirlərin təkcə pul formasının olmasında deyil, həm də yeyinti məhsullarının maddi formasından və əhaliyə göstərilən güzəştlərdən dolayı gəlirlər haqqında informasiya natamam hesab edilir. Ona görə də statistika daha çox xərclərin öyrənilməsinə diqqətini cəmləşdirir, yəni əhalinin gəlirlərini onların xərclərindən çıxış edərək tədqiq edir.

Əhalinin gəlirləri və xərclərinin tədqiqi üzrə statistik metodologiyanın təkmilləşdirilməsi bu sahədə olan beynəlxalq müqayisələrin genişləndirilməsinə şərait yaradır (O. Başina, A. Spirinanin redaktəsi altında, 2005, s-97-98).

Əhalinin gəlirləri, xərcləri və istehlakının tədqiqi zamanı ev təsərrüfatlarının fəaliyyətinin tədqiqində makro və mikroiqtisadi yanaşmadan qarşılıqlı şəkildə istifadə etmək zərurəti yaranır.

Makroiqtisadi səviyyədə ev təsərrüfatlarının fəaliyyəti ayrıca bir sektor kimi fəaliyyəti tədqiq edilir, həmçinin bu sektorun iqtisadi əməliyyatlarda iştirakı və digər sektorlarla qarçılıqlı əlaqəsi nəzərdən keçirilir.

Maroiqtisadi səviyyədə ev təsərrüfatları şəxslər qrupu kimi nəzərdən keçirilir və onların fəaliyyəti əmttəə və xidmətlərin istehsalı, əmək fəaliyyəti, demoqrafik proseslər, onların gəlirləri, xərcləri, istehlakı və s. üzrə tədqiq edilir.

Bu iki yanaşmanın birləşdirilməsi "Ev təsərrüfatı" sektorunu ev təsərrüfatlarının qruplarını müxtəlif əlamətlər üzrə ayıraraq (məs., üzvlərin sayı, gəlirlərə görə və s.) tərkib hissələri üzrə tədqiq etməyə imkan verir.

Azərbaycanda əhalinin gəlirləri və istehlakı haqqında başlıca informasiya mənbələrindən biri ev təsərrüfatlarının seçmə tədqiqatları hesab edilir. Seçmə tədqiqatlar dövlət statistika oqranları tərəfindən AR hökümətinin qanunvericiliyinə uyğun Dövlət Statistika Komitəsi tərəfindən hər il təsdiq edilən statistik işlərin dövlət proqramına uyğun olaraq icra edilir. Tədqiqatların aparılmasının başlıca məsələləri aşağıdakılar hesab edilir:

- MHS çərçivəsində "Ev təsərrüfatları" sektorunun göstəricilərinin qiymətləndirilməsi üçün məlumatların əldə edilməsi;
- Gəlir səviyyəsinə görə əhalinin bölüşdürülməsinin qurulması və gəlirlər üzrə əhalinin differensasiyası və mərkəzləşməsinin qitmətləndirilməsi;
- Yoxsulluq səviyyəsinin analizi;
- Əhalinin müxtəlif sosial təbəqələrinin istehlakı və pul gəlirlərinin strukturu və xarakterinin tədqiqi;
- İstehlak qiymətəri indeksinin qurulması üçün istehlak xərclərinin strukturunun tədqiqi (Akuliç M., 2009, s.196-198).

Ev təsərrüfatlarının tədqiqi onların rifahının səviyyəsi və dinamikasının onların ölçüsü və tərkibindən asılılığını aşkara çıxarmağa, ev təsərrüfatlarının gəlir və xərclərinin strukturunu müvafiq şəkildə qiymətləndirməyə, müxtəlif gəlir səviyyəli ev təsərrüfatları qrupunun istehlak səviyyəsini öyrənməyə, yoxsulluq səviyyəsindən aşağı gəlirlərə malik əhalinin tərkibini və strukturunu öyrənməyə imkan verir.

### 1.3. Əhali istehlakının makrosəviyyədə göstəricilər sistemi

Beynəlxalq iqtisadi münasibətlər sistemində nəzəri və tətbiqi xarakterli tədqiqatların aparılması üçün, dünya iqtisadiyyatında başlıca proses və tendensiyaların aşkara çıxarılması üçün, müxtəlif ölkə, sahə və müəssisələrin iqtisadi vəziyyətinin analizinin aparılması üçün müvafiq informasiyadan istifadə etmək lazımdır. Bunun üçün informasiyanın toplanılması, seçilməsi və təsnifləşdirilməsi çox mühüm rol oynayır. (İmanov C.Q. Həsənli Y.H. Bakı 2001,s-248).

Beynəlxalq iqtisadi münasibətlərdə problemlərin tam analizi və situasiyanın proqnozlaşdırılması üçün müvafiq olaraq təkcə iqtisadi deyil, həmçinin birbaşa və aralıq təsir göstərən amilləri nəzərə almaq lazımdır.

Daha çox qlobal xarakter almağa başlayan beynəlxalq iqtisadi münasiblətlər sahəsində proseslərin tədqiqi ilk növbədə, makroiqtisadi göstəricilərdən düzgün istifadə etməyi tələb edir. Ona görə də statistika informasiyanın başlıca mənbəyi

hesab olunur. Bu zaman artıq hər hansı hadisənin və ya prosesin konkret statistik tədqiqatının nəticəsi olan hazır rəsmi statistik məlumatlardan istifadə olunur.

Əhalinin istehlakının başlıca mənbəyini xarakterizə edən informasiya mənbələrinə aşağıdakılar aid olunur:

- İstehlakın adambaşına və istehlak vahidinə düşən natural və pul göstəricilərinin əsasında qurulan və istehlakın strukturu, dinamikası və differensasiyası tədqiq olunan təsərrüfatlarının büdcələrinin seçim müşahidəsi üzrə məlumatlar;

- Pərakəndə məhsul dövriyyəsinin həcmi və strukturu haqqında ticari statistikanın verilənləri;

- Maliyyə statistikasının məlumatları əsasında məhsul və xidmətlərin alışı və yığımının asılılığını göstərən pul gəlirləri və xərcləri balansı;

- İstehlak resurslarının formalaşması və istifadəsində iştirak edən müəssisə və təsərrüfatların fəaliyyətinin statistikası. Onun əsasında istehlak resurslarının balanslarl qurulur, əhali tərəfindən başlıca yeyinti məhsullarının istehlak fondu qurulur və istehlakın adambaşına düşən natural göstəriciləri hesablanır, istehlakın dinamikası öyrənilir (Quliyev C.B. 2004, s.310).

Makrosəviyyyədə əhali istehlakının ümumiləşdirilmiş göstəricisi ev təsərrüfatlarının son istehlak xərcləri hesab olunur. Bu xərclərə daxildir:

1) İstehlak mallarlnın və xidmətlərinin alışına sərf olunan xərcləri, əməyin natural ödənilməsi hesabına əldə olunan məhsul və xidmətlərin son istehlakı və ev təsərrefatlarınln öz istehlakı üçün istehsal etdiyi əmtəə və xidmətlərjn istehlakını birləşdirən ev təsərrüfatlarının ölkə çərçivəsində son istehlakı;

2) Rezident ev təsərrefatlarının ölkə xaricində istehlak üçün əmtəə və xidtlərin alışı;

3) Ölkənin iütisadi ərazisində qeyri-rezident ev təsərrefatlsrının istehlak üçün əmtəə və xidmətlərin alışı (Quliyev C.B. 2004, s.312).

İstehlakın digər ümumiləşdirilmkş göstəricisi ev təsərrefatlarlnln faktiki son istehlakı hesab olunur. Faktiki istehlak həcmi - real gəlir, həmçinin hökümət və

qeyri- kommersiya təşkilatları tərəfindən təmin olunan son istehlakın real həcmidir. İstehlakın başlıca göstəricisi müəyyən məhsul və xidmətlərin adambaşına düşən orta göstəricisi kimi fərdi istehlak səviyyəsi hesab olunur. Fərdi istehlak səviyyəsi növlər üzrə istehlak olunan əmtəə və xidmətlərin əhalinin sayına olan nisbəti kimi hesablanır. Bu zaman ayrı-ayrı sosial qruplar və ya bütövlükdə əhalinin nisbəti götürülə bilər.

Əsas makroiqtisadi ölçü modellərindən biri İS-LM modelidir. 1937-ci ildə nobel mükafatı laureatı Con Hiks tərəfindən İS modelini Con Menyard Keynsin 1936-cı ildə yazdığı “Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi” kitabındakı fikirləri grafik olaraq təsvir edib yaratmışdır. Bu model faiz dərəcəsinin və istehsalın həcminin əmtəə və pul bazarındakı tarazlığını ölçür (İbrahimova X., Cəlilova R., Qurbanova T. 1999: s.344 s).

Bu modeldə İ-investisiya, S-yığım, L-pula olan tələb, M-pul təklifinə bərabərdir və mahiyyət etibarilə investisiya yığıma, pula olan tələb isə pul təklifinə bərabər olmalıdır (Quliyev F.T., 2004: s.387).

Fərdi istehlak səviyyəsi növlər üzrə istehlak olunan əmtəə və xidmətlərin əhalinin sayına olan nisbəti kimi hesablanır. Bu zaman ayrı-ayrı sosial qruplar və ya bütövlükdə əhalinin nisbəti götürülə bilər.

**Şəkil 2. İS-LM modeli**




**Mənbə:** (Quliyev C.B., 2004).

İS əyrisində mütənasib olaraq investisiyanın yığımdan, həm də faiz dərəcələrinin istehsaldan asılılıq qrafiki verilmişdir. Belə ki, əmtəə bazarında faiz dərəcələri ilə istehsalat arasındakı asılılıq tərs mütənasiblik olduğundan İS əyrisi aşağıya doğru əyilir, bu da istehsalatın artması ilə yığımın artması və investisiyaların yığıma bərabər olması üçün faiz dərəcələrinin aşağı düşməsinə səbəb olur.

LM modelində isə əksinə, Pul bazarında istehsalla faiz dərəcələri düz mütənasib olduğundan, LM əyrisi yuxarı meyl edir. Bu da istehsalın artması ilə pula olan tələbin də artması və faiz dərəcələrinin artması kimi izah olunur. (İbrahimova X., Cəlilova R., Qurbanova T. s.313).

İS əyrisi mahiyyət etibarilə faiz dərəcəsi ilə gəlir səviyyəsi arasındakı asılılığı əks etdirir. Bu model əmtəə və xidmətlər bazarında C.Keynsin gəlir-xərc modeli əsasında qurulub. C.Keyns bu modeldə cari xərcləri və planlanan xərcləri izah edir, hansı ki cari xərclər ev təsərrüfatlarının, müəssisələrin məsrəf xərclərinin cəmi kimi, planlanan xərclər isə əmtəə və xidmət alışı üçün nəzərdə tutulan xərclər kimi başa düşülür (Quliyev C.B., 2004, s.315).

**Qrafik 1. İS modeli**




**Mənbə:** (Quliyev C.B., 2004)

Planlaşdırılan xərcləri müəyyən edən amilləri nəzərdən keçirsək bu aşağıdakı formada olacaq:

$$E=C+İ+G$$

E-planlaşdırılmış xərclər, C-istehlak, İ-investisiya, G-dövlət xərcləridir.

İstehlak xərclərinin (C) gəlirdən (Y) asılılıq düsturu aşağıdakı kimidir:

$$C=C(Y\text{-}T)$$

Burada, Y-gəlir, T-vergilərdir.

Əgər planlaşdırılmış investisiyaları sabit qəbul etsək,

$$\dot{I}=\dot{I}o$$

Dövlət xərclərinin və vergilərin gəlirdən daha çox dövlət siyasətindən asılı və sabit olduğunu qəbul edirik (İbrahimova X., Cəlilova R., Qurbanova T. s.388).

$$G=Go$$

$$T=To$$

Bunları birləşdirsək planlaşdırılmış xərclərin yeni düsturunu alarıq:

$$E=C(Y\text{-}To)+\dot{I}o+Go$$

Düsturdan göründüyü kimi planlaşdırılmış xərclər birbaşa olaraq istehlakdan (C) asılıdır (İbrahimova X., Cəlilova R., Qurbanova T. s.389).

İstehlak kateqoriyasının mürəkkəb və çöxtərəfli olması milli hesablar sistemindən (və ya milli təsərrüfat balansından) başlayaraq resurslar balansı və kəndt təsərrüfatı məhsullarından istifadəyə, pərakəndəsatış əmtəə dövriyyəsi statisikası və əhaliyə reallaşdırılan xidmət həcmindən ev təsərrüfatları büdcəsi statistikası və dövrün büdcə tədqiqatlarına qədər müxtəlif aspektlərdə istehlakı xarakterizə edən çeşidli informasiyada öz əksini tapır.

Makrosəviyyədə MDB ölkələrində məcmu gəlirin istehlak məqsədləri üçün istifadənin xarakteristikası üçün “ev təsərrüfatlarının faktiki son istehlakı”adlı aqreqasiya edilmiş göstəricidən istifadə olunur. Bu göstərici maliyyələşmə mənbəyindən və bütövlükdə cəmiyyətə dövlət idarəetmə idarələri tərəfindən təqdim edilmiş kollektiv xidmətlərin dəyərindən asılı olmayaraq, ev təsərrüfatları - rezidentlər tərəfindən şəxsi istehlak üçün əldə edilmiş bütün əmtəə və xidmətlərin dəyərinin cəmindən formalaşır. Ev təsərrüfatları üçün buraya istehlak əmtəələri və xidmətlərinin alışına sərf olunan xərclər və ev təsərrüfatlarına xidmət edən dövlət idarəetmə orqanları və qeyri-kommersiya təşkilatları tərəfindən onların ödənişsiz şəkildə əldə etdiyi natural formada sosial transfertlər qismində çıxış edən şəxsi istehlak əmtəə və xidmətlərinin dəyərindən ibarətdir.

İstehlak sferasının tədqiqi ilk öncə şəxsi istehlakın, yəni əhalinin əmtəə və xidmətlərin əldə edilməsinə sərf etdiyi pul gəlirlərinin, yeyinti məshulları, geyim, ayaqqabı, parça, mədəni-məişət məqsədli predmetlərə, yanacağa, elektrik enerjisinə sərf etdiyi xərclərin, ictimai nəqliyyət xidmətlərinin, kommunal-yaşayış təsərrüfatının, məişət sferasının və s. xərclərinin analizinə əsaslanır.

Eyni zamanda, əhali tərəfindən şəxsi istehlak üçün büdcə tibbi müdafiə, sosial təminat, təhsil ,mədəniyət və incəsənət təşkilatları, həmçinin qeyri-kommersiya təşkilatları tərəfindən ödənişsiz şəkildə əldə olunan natural formada sosial transfertləri nəzərə almasaq istehlakın xarakteristikası natamam olardı. Buraya ödənişsiz tibbi yardım və ümumi və peşəkar təhsil, çoxuşaqlı və natamam ailələrə, fiziki qüsurlu insanlara və əhalinin digər aztəminatlı qruplarına maddi formada (ödənişsiz və ya qismən ödənişli dərman preparatları; ödənişsiz məktəb yeməkləri, geyim və ayaqqabı predmetləri; ictimai nəqliyyatda ödənişsiz keçid;mənzil-kommunal və digər xidmətlər üzrə güzəştlər və s.) yardım aiddir.

Əhalinin ayrıca qrupları üçün maddi formada belə sosial transfertlər istehlakın müəyyən səviyyəsini təmin edən başlıca mənbələr kimi çıxış edə bilər.

Ev təsərrüfatlarının faktiki son istehlakının inteqral göstəricisi makrosəviyyədə əhalinin həyat səviyyəsinin mühüm xarakteristikası olan istehlakın ümumi həcmi haqqında, onun tərkib hissələri isəmaddi məhsullar və xidmətlərin əldə edilməsi mənbələri haqqında təsəvvürü yaradır.

Qeyd etmək lazımdır ki, ev təsərrüfatlarının faktiki son istehlak göstəricisi indiki zamana qədər milli təsərrüfat balansında hesablanan və əhalinin həyat səviyyəsinin inteqral qiymətləndirilməsi üçün istifadə olunan əhali tərəfindən maddi nemətlər və xidmətlərin istehlakının ümumi həcmi göstəricisi ilə oxşar xüsusiyyətlərə malikdir.

Ev təsərrüfatlarının faktiki son istehlakının dinamikası göstəricilərinin qiymətləndirilməsi üçün onun cari qiymətlərdə hesablanması kifayət etməyə bilər. Məsələn, inflyasiya səviyyəsində faktiki son istehlak həcminin müvəqqəti müqayisəsi müqayisə olunan qiymətlərdə yerinə yetirilir, bunun üşün də əhalinin xərcləri müvafiq istehlak qiymətləri indeksi uyğun, yuxarıda qeyd olunan ödənişsiz

qaydada təqdim olunan maddi sosial transfertlər isə müvafiq sahə deflyatorlarına uyğun olaraq hesablanır.

Lakin istehsal sferasının tədqiqi yuxarıda qeyd olunmuş ev təsərrüfatlarının faktiki son istehlakının makroiqtisadi göstəricisi ilə məhdudlaşmır.

Sosial-iqtisadi statistikada şəxsi istehlakın göstəriciləri məhsul və xidmətlərin əldə edilmə mənbələrinin qeyd edilməsi ilə istehlak predmetləri üzrə qruplarda dəyər və maddi formada öz əksini tapır.

Statistik müşahidə zamanı şəxsi istehlakın dəyər göstəricilərinə əhalinin istehlak xərcləri, məhz onların səviyyəsi, strukturu və dinamikası aid edilir. Istehlak xərclərinin cari və müqayisə olunan qiymətlərdə ümumi dəyəri, onların əhalinin (ev təsərrüfatları, ailələrin) pul və ümumi gəlirlərində payı, bir tərəfdən əhalinin alıcılıq qabiliyyətini, digər tərəfdən ödəniş qabiliyyətli tələbin təmin edilməsi üzrə istehlak bazarının imkanlarını xarakterizə edir. Bununla əlaqədar olaraq şəxsi istehlakın dəyər göstəriciləri əhalinin ayrıca sosial-demoqrafik qrupları, ailə tipləri (ev təsərrüfatları) və s. üzrə gəlirlər və istehlak qiymətləri ilə qarşılıqlı asılılıq şəraitində tədqiq edilir.

Ərazi üzrə şəxsi istehlak göstəricilərinn analizi zamanı istehlak strukturuna təbii-iqlim amillərinin, milli xüsusiyyətlərin və mədəni ənənələrin təsiri nəzərə alınır.

Məsələn, şəhər və kənd əhalisinin, iri və kiçik şəhərlərin, şəhər və paytaxtda yaşayan əhalinin ayrıca öyrənilməsi tipik hesab edilir.

Ümumi istehlak xərclərinin, həmçinin əmtəə və xidmətlərin ayrı qrupları üzrə xərclər, bir qayda olaraq, əhalinin adambaşına düşən saylına görə, bir və ya yüz ev təsərrüfatına görə hesablanır.

Şəxsi istehlakın strukturu ev təsərrüfatlarının xərc istiqamətləri ilə xarakterizə edilir, lakin bu zaman xərclər maddi nemətlərin əldə edilməsi, digər tərəfdən xidmətlərin əldə edilməsi üzrə kəskin şəkildə fərqləndirilir. Maddi nemətlərin analizi zamanı onlar iki iri qrupa bölünür: ərzaq və qeyri-ərzaq məhsulları, ərzaq məhsulları isə - yeyinti məhsulları və alqokollu içkilərə bölünür.

Əhalinin həyat səviyyəsi nöqteyi-nəzərindən əhalinin ərzaq, geyim, ayaqqabı, mənzil tələbatları aid olunan ilkin tələbatlarının ödənilməsinə çəkilən xərclərin analizi prioritetli məsələlərdən biri hesab edilir.

İstehlak xərclərinin strukturunun analizi təkcə orta statistik göstəricilərlə yekunlaşmır. İstehlakın tədqiqinin mühüm məsələlərindən biri adambaşına düşən yüksək və aşağı gəlirlərə sahib ev təsərrüfatlarının (ailələrin) və xüsusilə həddən artıq aşağı səviyyədə maddi təminatlılığa malik əhali qrupları arasında olan istehlakının səviyyəsi və strukturunda olan fərqlərin müəyyənləşdirilməsi hesab edilir. Bu məqsədlə ev təsərrüfatlarının büdcələrinin tədqiqi əsasında verilənlər adambaşına düşən gəlirə (maddi, məcmu) qruplaşdırılır, istehlak xərclərinin müvafiq ölçüləri və onların struktrunun xüsusiyyətləri müəyyənləşdirilir. İstehlakda qeyri-bərabərlik gəlirlərin bölüşdürülməsində olan qeyri-bərabərliyin qiymətləndirilməsinə uyğun dəyərləndirilir. Çox zaman desil qrupların aşağı və yuxarı istehlakında olan fərqlərə görə, yəni tədqiq edilmiş minimum və maksimum gəlirlərə sahib olan əhalinin 10 %-i üzrə tədqiq edilir

## 1.4. Ev təsərrüfatlarının büdcəsi nümunəsi əsasında əhalinin istehlak fondları, əsas ərzaq məhsulları istehlakının öyrənilməsi

Ev təsərrüfatı - bazar iqtisadiyyatı şəraitində tələbatlarını mümkün qədər maksimal olaraq ödəmək üçün müstəqil qərarlar qəbul etməklə istehsal amilin sahibi olaraq çıxış edən bir iqtisadi qurumdur, hansı ki o, bir iqtisadi vahid kimi ev təsərrüfatının büdcəsinin idarə edilməsi mühüm məsələdir və kiçik iqtisadi qurum kimi tənzimlənməlidir. Ev təsərrüfatının bir iqtisadi qurum kimi təhlilinə 1884-cü ildə F.Engelsin “Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi” əsərində ailə daxilində əmək və bazarda əmtəə daxil olmaqla resurslar sərf edən, tələbatlarını ödəmək üçün nemətlər istehsal etmək üçün müəyyən xərclər çəkən bir firma kimi baxmaqla ciddi töhvə verdi (Quliyev C.B., s.302).

Marksist iqtisadi nəzəriyyəsinə əsasən, iqtisadi sistemin əsas istehlak həlqəsi olan ailə təsərrüfatının istehsal xarakterli( evin təmiri, qida hazırlanması, paltar

tikilməsi və s.) istehlak xərcləri olur. Yaşayış yerinə, qidaya sərf olunan xərclərdən başqa ailə təsərrüfatı əmtəə və xidmətlərin alınmasına vəsait sərf edir ki, bunlar da artıq istehlak sahəsində tədavül xərcləridir. Ev təsərrüfatında xərclər yalnız növlərinə görə deyil, həmçinin iqtisadi məzmununa görə bölünür.

Ev təsərrüfatının bazar münasibətlərində ailənin rolu olduqca mürəkkəbdir. Ailə ev təsərrüfatlarının müxtəlif problemlərini, biznesin idarə olunması, iş qüvvəsinin təkrar istehsalını, istehlak tələbinin lazimi səviyyəsinin təmin edilməsi, investisiya potensialının yaradılması və digər məsələlərin həllində rol oynayır. Ev təsərrüfatı tədqiq edilərkən əsasən iki səviyyə ilə nəzərdən keçirilir (Quliyev C.B., s.304).:

- makroiqtisadi səviyyədə;
- mikroiqtisadi səviyyədə.

Makroiqtisadi səviyyə deyərkən ilk növbədə bütün iqtisadi vahidlərin məcmusu başa düşülür, yəni ev təsəsrrüfatlarının sosial-iqtisadi vəziyyəti bilavasitə, əhalinin sosial-iqtisadi vəziyyəti, iqtisadi maraqlarına təsir edir. Gəlirlər makro səviyyədə ev təsərrüfatlarının istehlakdakı payı və yığımı, ümumi daxili məhsulda onların faizi öyrənilir.

Mikroiqtisadi səviyyədə ev təsərrüfatları ayrı-ayrı özünəməxsus, spesifik iqtisadi vahid kimi baxılır və onların iqtisadi funksiyaları olan fərdi tələb fərdi təklif, gəlirlər, istehlak, qiymət, məsrəflər araşdırılır (Quliyev C.B., s.305).

Bazar iqtisadi sisteminə keçidlə əlaqədar olaraq ev təsərrüfatı sistemi yeni spesifik formada təhlil olunur. Belə ki, ev təsərrüfatlarının tədqiq olunması zamanı ona iqtisadi fəaliyyətin əsas subyekti kimi baxılır, yəni ev təsərrüfatının fəaliyyətinin nəticələri təkcə ayrı-ayrı ailələrin deyil,eyni zamanda bütün əhalinin rifah halına təsir göstərir və dövrü axın modelini yaradır (Şəkil 3.). Dövrü axın modeli ev təsərrüfatının istehsal amilləri bazarı üçün “insan kapitalı”, yəni işçi qüvvəsi yaratmaqla firmaların fəaliyyətinə birbaşa təsir edir, eyni zamanda satılan əmtəə və məhsulların alıcısı kimi bazarda çıxış edir, həmin əmtəə və xidmətlər hesabına öz zəruri tələbatların ödəməklə bu sistem dövrü olaraq davam edir.

Bazar iqtisadi sistemınə keçidlə əlaqədar olaraq ev təsərrüfatı sistemi yeni spesifik formada təhlil olunur.  Belə ki, ev təsərrüfatlarının tədqiq olunması zamanı ona iqtisadi fəaliyyətin əsas subyekti kimi baxılır, yəni ev təsərrüfatının fəaliyyətinin nəticələri təkcə ayrı-ayrı ailələrin deyil,eyni zamanda bütün əhalinin rifah halına təsir göstərir və dövrü axın modelini yaradır (Şəkil 3.).

**Şəkil 3.  Dövrü axın modeli**




**Mənbə:** (Quliyev F.T.,2004).

İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin ədəbiyyatlarında və statistik məcmuələrində ev təsərrüfatı anlayışı sosial-iqtisadi vəziyyətin tədqiqi ilə bağlı məsələləri əks etdirir. Ev təsərrüfatında xərcləri ailə üzvlərinin gəlirlərinin cəmlənməsi və tələbatların ödənilməsində onlardan düzgün istifadəsi müəyyən edir. Ailə iqtisadiyyatında sosial-demoqrafik, sosial psixoloji, sosial-iqtisadi və funksional iqtisadi aspektlər mövcuddur. Belə ki, sosial-demoqrafik aspektə ailədəki uşaqların təlim-tərbiyəsi üçün ayrılan məsrəflər, ailənin iqtisadi davranışının səmərəliliyi, sosial-psixoloji aspekə ailədaxili iqtisadi münasibətlərin tətqiq olunması, cəmiyyətdə baş verən dəyişikliklərin ailə münasibətlərinə təsiri, bazar iqtisadiyyatı amilinin təsiri, sosial-iqtisadi aspektə ailələrin sosial statusunun iqtisadi vəziyyətinə təsiri, funksional-iqtisadi aspektə ailə təsərrüfatının iqtisadi vəziyyətinin

və iqtisadi davranışının təhlili, cəmiyyətdə baş verən dəyişikliklərin onlara təsiri və uyğunlaşdırılması aid edilir.

Ev təsərrüfatı və ailələr onların aylıq gəlirlərindən asılı olaraq bir iqtisadi qurum kimi özünün istehlak fondunu yaradır. Son dövrlərdə əhalinin maddi rifah halının yaxşılaşması və gəlirliyinin artması nəticəsində yığıma meyllilik də artmışdır.

Yığımın çox olması istehlakla tərs mütənasibdir və bazarda iqtisadi dövriyyəni ləngidir, lakin uzunmüddətli dövr üçün əhalinin, o cümlədən ev təsərrüfatlarının şəxsi istehlakını artırır, məsələn, böyük məbləğ tələb edən məsrəflər yığım fondunun əsasında reallaşır.

Hazırda sosial-iqtisadi tədqiqatlarda ev təsərrüfatlarının tədqiq olunması nəticəsində ölkənin ümumi daxili məhsul göstəricisinə təsiri müəyyən edilmişdir və əhalinin gəliri və istehlak sahələrinin tədqiqi aspektindən zəruri hesab edilir (Yoxsulluğun Azaldılması və İqtisadi İnkişafı üzrə Dövlət Proqramı, 2004).

Ümumilikdə, əhalinin rifah halının qiymətləndirilməsində və həyat səviyyəsinin müəyyən olunmasında ev təsərrüfatlarının ailə üzvlərinin adambaşına düşən gəlirlərinin ölçülməsi və nəzərə alınması vacib hesab edilir.

Nəticədə orta hesabla adambaşına düşən gəlirin həcmi gəlirin ümumi səviyyəsindən, əmək qabiliyyətli olan və əmək qabiliyyətli olmayanların nisbət göstəricilərindən asılıdır.

Hazırda sosial-iqtisadi tədqiqatlarda ev təsərrüfatlarının tədqiq olunması nəticəsində ölkənin ümumi daxili məhsul göstəricisinə təsiri müəyyən edilmişdir və əhalinin gəliri və istehlak sahələrinin tədqiqi aspektindən zəruri hesab edilir (Yoxsulluğun Azaldılması və İqtisadi İnkişafı üzrə Dövlət Proqramı, 2004).

Ümumilikdə, əhalinin rifah halının qiymətləndirilməsində və həyat səviyyəsinin müəyyən olunmasında ev təsərrüfatlarının ailə üzvlərinin adambaşına düşən gəlirlərinin ölçülməsi və nəzərə alınması vacib hesab edilir.

Nəticədə orta hesabla adambaşına düşən gəlirin həcmi gəlirin ümumi səviyyəsindən, əmək qabiliyyətli olan və əmək qabiliyyətli olmayanların nisbət göstəricilərindən asılıdır.

2017-ci ildə ev təsərrüfatı başçısının sosial-iqtisadi statusuna görə ərzaq məhsullarının istehlakına nəzər salsaq, ev təsərüfatında ərzaq məhsullarının hər birinə düşən proporsional bölgü ümumi daxili məhsulun əsas hissəsini təşkil edir.

**Cədvəl 2. 2013-2017-ci illər üzrə ev təsərrüfatlarında ayda adambaşına düşən istehlak xərcləri, manatla**

| | Ölkə üzrə | | | | |
|---|---|---|---|---|---|
| | **2013** | **2014** | **2015** | **2016** | **2017** |
| **İstehlak xərcləri, cəmi** | **221,4** | **234,9** | **245,6** | **264,7** | **278,2** |
| ərzaq məhsullarına | 91,8 | 95,6 | 99,4 | 107,1 | 117,9 |
| alkoqollu içkilərə | 1,1 | 1,2 | 1,3 | 1,5 | 1,5 |
| tütün məmulatlarına | 2,2 | 2,5 | 2,6 | 3,6 | 3,9 |
| paltar və ayaqqabıya | 15,9 | 16,3 | 16,9 | 17,9 | 18,0 |
| su, işıq, qaz və digər yanacaq növlərinə | 17,0 | 17,3 | 18,2 | 19,8 | 20,5 |
| ev əşyaları, məişət texnikası və evə gündəlik qulluğa | 19,8 | 22,1 | 23,2 | 24,2 | 24,4 |
| səhiyyə xidmətlərinə | 10,3 | 11,5 | 12,0 | 12,9 | 13,1 |
| nəqliyyat xərclərinə | 14,2 | 14,7 | 15,3 | 16,7 | 16,9 |
| rabitə xərclərinə | 6,8 | 7,7 | 8,2 | 9,0 | 9,0 |
| istirahət və mədəniyyət xərclərinə | 9,3 | 10,3 | 10,9 | 11,5 | 11,7 |
| təhsil xərclərinə | 4,3 | 4,6 | 4,8 | 5,0 | 5,1 |
| mehmanxana, kafe, restoran və yeməkxanaya | 18,7 | 20,3 | 21,5 | 23,0 | 23,4 |
| digər mal və xidmətlərə | 10,0 | 10,7 | 11,3 | 12,6 | 12,7 |

**Mənbə:** Statistika Komitəsinin 2017-ci il üçün rəsmi göstəriciləri əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Statistik göstəricilərdən məlum olduğu kimi, Respublikamızda əhalinin istehlak xərclərinin son beş ildə artımı müşayiət olunmuşdır.

Əhalinin ərzaq məhsullarına olan tələbatı və istehlakının həcmi 2013-ci il ilə müqayisədə 2017-cü ildə 77% artmışdır, uyğun olaraq, alkoqollu içkilərdə olan istehlak həcmi 73%, tütün məmulatlarına 56%, geyim və ayaqqabıya 88%, su, işıq, qaz və digər yanacaq növlərinə olan kommunal istehlak 82%, ev əşyaları, məişət texnikası və evə gündəlik qulluğa olan göstəricilər 81%, səhiyyə xidmətlərinə 78%, nəqliyyat xərclərinə 84%, rabitə xərclərinə 75%, istirahət və mədəniyyət xərclərinə 79%, təhsil xərclərinə 84%, mehmanxana, kafe, restoran və yeməkxanaya 79%, digər mal və xidmətlərə olan istehlak xərci göstəriciləri isə 78% artmışdır. 2017-ci ildə ev təsərrüfatı başçısının sosial-iqtisadi statusuna görə ərzaq məhsullarının

istehlakına nəzər salsaq, ev təsərüfatında ərzaq məhsullarının hər birinə düşən proporsional bölgü ümumi daxili məhsulun əsas hissəsini təşkil edir.

**Cədvəl 3. 2017-ci ildə ev təsərrüfatı başçısının sosial-iqtisadi statusuna görə ərzaq məhsullarının istehlakı** (ildə kiloqramla)

| | Ev təsərrüfatı başçısının sosial-iqtisadi statusu: | | | | |
|---|---|---|---|---|---|
| | **Kənd təsərrüfatında özüməşğul olanlar** | **Muzdla işləyənlər** | **Özüməşğul olanlar** | **Pensiyaçılar** | **Digər** |
| **Çörək və çörək məhsulları** | 139,4 | 136,9 | 138,9 | 138,0 | 137,1 |
| **Kartof** | 73,4 | 72,6 | 72,3 | 72,8 | 73,2 |
| **Tərəvəz və bostan bitkiləri** | 107,3 | 107,7 | 106,9 | 107,2 | 109,4 |
| **Ət və ət məhsulları** | 33,2 | 33,6 | 33,8 | 33,3 | 33,0 |
| **Balıq və balıq məhsulları** | 7,2 | 7,1 | 7,2 | 7,3 | 7,2 |
| **Süd və süd məhsulları** | 269,3 | 269,5 | 270,2 | 268,9 | 271,9 |
| **Yumurta, ədəd** | 158,0 | 159,0 | 159,0 | 158,0 | 158,0 |
| **Meyvə, giləmeyvə** | 78,8 | 78,6 | 78,0 | 77,7 | 80,1 |
| **Qənd və qənnadı məmulatları** | 30,0 | 30,3 | 30,3 | 30,0 | 30,5 |
| **Bitki yağı və marqarin** | 10,4 | 10,6 | 10,5 | 10,5 | 10,7 |

**Mənbə:** Statistika Komitəsinin 2017-ci il üçün rəsmi göstəriciləri əsasında müəllif tərəfindən tərtib edilmişdir

Son beş ildə ev təsərrüfatlarında adambaşına düşən aylıq gəlir göstəricilərinə nəzər salsaq muzdlu əmək fəaliyyətindən gəlirlər (əmək haqqı) 2013-cü il ilə müqayisədə 2017-ci ildə 78%.

Sahibkarlıq fəaliyyəti və özüməşğulluqdan gəlirlər 80%, kənd təsərrüfatından gəlirlər 83%, icarədən gəlirlər 88%, əmlakdan gəlirlər 83%, alınmış cari transfertlər 82%, pensiyalar 81%, müavinət və sosial yardımlar 66%, digər ailələrdən alınmış gəlirlər 71%, ölkə xaricindən göndərilən pul 81%, digər gəlirlər 73% artmış, naturada sosial transfertlər kəskin azalmışdır (Statistika Komitəsinin 2017).

**Cədvəl 4. 2013-2017-ci illər üzrə ev təsərrüfatlarında ayda adambaşına düşən gəlirlər, manatla**

| | Ölkə üzrə | | | | |
|---|---|---|---|---|---|
| | **2013** | **2014** | **2015** | **2016** | **2017** |
| **Gəlirlər – cəmi** | **214,7** | **230,0** | **240,5** | **257,8** | **268,4** |
| **Muzdlu əmək fəaliyyətindən gəlirlər (əmək haqqı)** | 70,7 | 74,8 | 78,2 | 86,3 | 89,5 |
| **Sahibkarlıq fəaliyyəti və özüməşğulluqdan gəlirlər** | 55,2 | 61,2 | 63,9 | 66,7 | 68,6 |
| **Kənd təsərrüfatından gəlirlər** | 29,8 | 30,6 | 32,1 | 33,9 | 35,9 |
| **İcarədən gəlirlər** | 1,6 | 1,7 | 1,7 | 1,8 | 1,8 |
| **Əmlakdan gəlirlər** | 0,5 | 0,5 | 0,5 | 0,5 | 0,6 |
| **Alınmış cari transfertlər** | 34,6 | 36,7 | 38,0 | 40,9 | 41,8 |
| **pensiyalar** | 29,3 | 30,9 | 32,2 | 34,7 | 35,9 |
| **müavinət və sosial yardımlar** | 3,4 | 3,8 | 3,9 | 4,1 | 5,1 |
| **naturada sosial transfertlər** | 1,8 | 2,0 | 2,0 | 2,0 | 0,8 |
| **Digər gəlirlər** | 22,3 | 24,5 | 26,0 | 27,8 | 30,2 |
| **digər ailələrdən alınmış gəlirlər** | 16,5 | 18,5 | 19,7 | 21,1 | 23,1 |
| **ölkə xaricindən göndərilən pul** | 5,8 | 6,0 | 6,3 | 6,7 | 7,1 |

**Mənbə:** Statistika Komitəsinin 2017-ci il üçün rəsmi göstəriciləri əsasında müəllif tərəfindən tərtib edilmişdir

Beləliklə, ev təsərrüfatlarının gəlirlərinə nəzər yetirdikdə məşğulluqdan gələn gəlirlərin üstünlük təşkil etdiyini qeyd etmək olar, başqa sözlə desək əmək haqqı ev təsərrüfatı gəlirlərinin əsas hissəsini təşkil edir.

# II Fəsil AZƏRBAYCANDA ƏHALİ İSTEHLAKININ QİYMƏTLƏNDİRİLMƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

## 2.1. Əhalinin istehlakının və istehlak qiymətlərinin dinamikası

Əhalinin istehlak kateqoriyasının mürəkkəb və geniş olması öz məzmununu milli hesablar sistemindən (və ya milli təsərrüfat balansından), resurslar balansı və kənd təsərrüfatı məhsullarının istifadəsindən, pərakəndə məhsul dövriyyəsi statistikasından və əhaliyə realizasiya olunmuş xidmətlərin həcmindən başlayaraq ev təsərrüfatı büdcələrinin statistikası və büdcə tədqiqatlarına qədər çeşidli informasiyada özünü əks etdirir.

Müəyyən dövr ərzində ev təsərrüfatlarının faktiki son istehlak dinamikasının qiymətləndirilməsi üçün onu cari qiymətlər səviyyəsində hesablanması kifayət olmur. Məsələn, inflyasiya səviyyəsində faktiki son istehlak həcmlərinin zaman üzrə qarşılaşdırılması müqayisə olunan qiymətlər üzrə aparılır, bunun üçün əhalinin xərcləri istehlak qiymətləri üzrə müvafiq indekslərlə hesablanır, ödənişsiz təqdim olunan təbii sosial transfertlər isə müvafiq sahə deflyatorlarına uyğun hesablanır.

Əhalinin istehlakının və istehlak qiymətlərinin dinamikası indeks metodu vasitəsilə öyrənilir.

Əhalinin və adambaşına düşən məhsul və xidmətlərin ümumi fiziki istehlak həcmi indeksləri aqreqat formada aşağıdakı şəkildə hesablanır (V. Boriseviç, Q. Kandaurovanın redakrotluğu altında. 2002-ci il, s.115):

Bütövlükdə əhali üzrə məhsullara görə

$$i_{\overline{q}} = \frac{\sum p_0 q_1}{\overline{N_1}} \div \frac{\sum p_0 q_0}{\overline{N_0}} = \frac{\sum p_0 q_1}{\sum p_0 q_0} \div \frac{\overline{N_1}}{\overline{N_0}} = i_q \div i_{\overline{N}};$$

adambaşına görə $i_q = \frac{\sum p_0 q_1}{\sum p_0 q_0}$;

bütövlükdə əhali üzrə xidmətlərə görə $i_s = \frac{\sum s_1 t_0}{\sum s_0 t_0}$,

adambaşına görə $i_{\overline{s}} = \frac{\sum s_1 t_0}{\overline{N_1}} \div \frac{\sum s_0 t_0}{\overline{N_0}} = \frac{\sum t_0 s_1}{\sum s_0 t_0} \div \frac{\overline{N_1}}{\overline{N_0}} = i_s \div i_{\overline{N}}$.

Bütövlükdə məhsullar və xidmətlər üzrə

$$i_{\overline{S}} = \frac{\sum q_1 p_0 + \sum s_1 t_0}{\overline{N}_1} \div \frac{\sum q_0 p_0 + \sum s_0 t_0}{\overline{N}_1} = \frac{\sum q_1 p_0 + \sum s_1 t_0}{\sum q_0 p_0 + \sum s_0 t_0} = i_{q,s} \div i_{\overline{N}} .$$

Uzun müddət aqreqat indekslərin indekslərin ən yaxşı forması olduğu hesab olunurdu. Həqiqətən də müəyyən mənada onlar daha analitikdir: bizi maraqlandıran göstəricilərdən əlavə, onların vasitəsilə bütövlükdə əhali üzrə və adambaşına düşən əhali tərəfindən istehlak olunan məhsul və xidmətlərin fiziki həcminin xalis dəyişməsi pul vahidi üzrə təyin edilir. Bunun üçün indekslərin surət və məxrəcində məhsul və xidmətlərin satış qiymətləri arasında fərq tapılır. Lakin aqreqat indeksin tətbiqi müqayisə olunan qiymət və tariflərin mövcudluğunu və cari dövrün bu qiymət və tariflərdə ($\sum q_0 p_0$ və $\sum s_1 t_0$) əhaliyə satılan məhsul və xidmətlərin dəyərinin hesablanmasını nəzərdə tutur ki, bu da çox problematikdir.

Bizim təcrübəmiz beynəlxalq statistika kimi bu problemi deflyatorluq metodunu tətbiq etməklə həll edir. Onun mahiyyəti əhaliyə cari dövrün məhsul və xidmətlərinin satış qiymətini ÜDM deflyatorunun indeksinin tərkib hissəsi olan istehlak qiymətlərinin toplu cari- nisbi indeksi vasitəsilə bazis dövrünün tarif və qiymətlərinin yenidən hesablanmasından ibarətdir (V. Boriseviç, Q. Kandaurovanın redakrotluğu altında. 2002-ci il, s.121):

$\sum q_1 p_1 \div i_p = \sum q_1 p_0$, çünki $i_p = \frac{\sum q_1 p_1}{\sum \frac{1}{i_p} q_1 p_1} = \frac{\sum q_1 p_1}{\sum q_1 p_0}$ .

Bundan sonra aqreqat indeksinin hesablanması mümkün olur:

$$i_{q,s} = \frac{\sum q_1 p_0 + \sum s_1 t_0}{\sum q_0 p_0 + \sum s_0 t_0} .$$

İstehlak qiymətlərinin toplu indeksində istifadə etməmək də olar, bu zaman ayrı-ayrı məhsullar və xidmətlər üzrə fərdi indekslərlə məhdudlaşmaq olar. Bunun üçün fiziki həcmin orta harmonik indeksindən istifadə olunur:

$$i_q = \frac{\sum \frac{1}{i_p} q_{1 p_1}}{\sum q_0 p_0}$$

Harada ki, $q_1p_1$ – hesabat dövründə ayrı-ayrı məhsulların satış qiymətidir. Bu indeksin aqreqat indeksinə bənzədiyini və ondan yalnız formaca fərqləndiyini asanlıqla görmək olar.

Aqreqat indekslər həcmin fərdi indekslərinin ($i_q$ və $i_s$) qiymətlərini xüsusiləşdirmədən və onların ümumi indeksdə rolunu göstərmədən əhali istehlakının fiziki həcminin dinamikasının ümumi qiymətləndirməsini verir.

Beynəlxalq təcrübədə 1871-ci ildə Laspeyres tərəfindən təklif edilən nisbi-bazis indeksindən istifadə edir. (Məşğulluq haqqında Azərbaycan Respublikasının Qanunu. 2002, s.98)

Aqreqat formada o aşağıdakı kimidir:

$$i_p = \frac{\Sigma q_1 p_0}{\Sigma q_0 p_0};$$

harada ki, p – faktiki istehlak olunan məhsulların sayı;

q – faktiki istehlak olunan xidmətlərin sayıdır.

Orta riyazi formada:

$$i_{p=} \frac{\sum \frac{p_1}{p_0} q_0 p_0}{\sum q_0 p_0} = \frac{\sum i_p q_0 p_0}{\sum q_0 p_0} = \sum i_p d_{q_0 p_0},$$

harada ki, $d_{q_0 p_0}$ – ayrıca məhsulun çəkisi, yəni ailələrin xərclərində ona çəkilmiç xərclərin istehlak xərclərində payıdır;

Aydındır ki, burada $\sum d_{q_0 p_0}$ = 1.

Nisbi-cari indeksdən fərqli olaraq bu indeksdə əhalinin mıhsullar üzrə istehlak xərclərinin strukturu və ya istehlak səbəti qismində istehlak səviyyəsi əvvəlki kimi bazis olaraq qalır ki, bu da istehlak qiymətlərinin dinamikasını xalis şəkildə dəyərləndirməyə imkan verir.

İstehlak yığımında məhsul və xidmətlərin və onların modellərinin tez tez dəyişməsi indeks hesablamalarında zəncirvari metoddan istifadə etməyə sövq edir. Bu zaman "canlı" satış qiymətlərinin qeydiyyatını aparmaq lazım olur. Məhsulun ekvivalent məhsulla əvəzlənməsi zamanı köhnə və yeni məhsul üzrə ikili qeydiyyat aparılır ki, bu da zəncirvari metoddan istifadəyə gətirib çıxarır. Məhsulun

əvəzlənməsi zamanı ikili qeydiyyat dinamika zəncirinin qırılmasından qoruyaraq, köhnə zənciri bitirməyə və yenisini başlamağa imkan yaradır. Zəncir yeni zəncirin qiymətinin köhnə zəncirin əvvəlki qiymətinə bölünməklə tapılır.

İ. Fişer istehlak qiymətlərinin cari və nisbi-bazis indekslərinin qiymətlərinə xüsusi təsir göstərən bazis və hesabat dövründə əhalinin istehlak xərcləri strukturunda fərq problemini özünəməxsus həll etmişdir. O, Fişer indeksi adı verilən "ideal" indeks qiymətlərini təklif etmişdir. Bu Paaşe və Laspeyres indeks qiymətlərindən ibarət olan orta həndəsi indeksdir: (V. Boriseviç, Q. Kandaurovanın redakrotluğu altında. 2002-ci il, s.141)

$$i_p = \sqrt{\frac{\sum q_1 p_1}{\sum q_1 p_0} \times \frac{\sum q_0 p_1}{\sum q_0 p_0}}$$

Aydındır ki, bu indeks real iqtisadi məzmununu itirmişdir və öz özlüyündə xalis iqtisadi modeli əks etdirir. Bizim nümunədə onun hesablanması yalnız o halda mümkündür ki, iki müqayisə olunan dövr ərzində istehlak xərclərinin strukturu prinsipial, keyfiyyət dəyişikliklərinə uğramışdır, bu da ölçü qismində nə cari, nə də bazis xərclər strukturunu istifadə etməyi mümkün etmir. Beynəlxalq statistika təcrübəsində Fişer indeksi xarici ticarət qiymətlərinin dinamikasının qiymətləndirilməsində və ikitərəfli dövlətlərarası müqayisələrin aparılmasında istifadə olunur.

İstehlak qiymətlərinin toplu indeksini çox zaman həyat dəyəri indeksi adlandırırlar. O rəsmi olaraq beynəlxalq statistikada da belə adlandırılırdı. Həqiqətən də, indeks hesabat dövründə dəyişməyən, bazis istehlak səviyyəsi ilə müqayisədə əhalinin təsbit edilmiş məhsul və xidmətlərin (istehlak xərcləri və ya həyat dəyəri) əldə edilməsinə çəkilən xərclərin necə dəyişdiyini göstərir. Bu yanaşmada nisbi-bazis qiymət indeksinin dəyişiklikləri əhalinin gəlirlərinin dəyişməsi və ya yeni məhsulların ortaya çıxması nəticəsində istehlak strukturunda yaranan dəyişiklərlə deyil, yalnız qiymət dəyişikliyi ilə bağlı əmələ gələ bilər. İstehlak qiymətləri indeksi çox zaman milli statistika üçün yeni göstərici olan, lakin digər ölkələrdə geniş istifadə olunan deflyator indeksi ilə birlikdə çıxış edir. Deflyator - istehlak

qiymətləri indeksində daha geniş indeksdir, çünki təkcə istehlak olunan məhsul və xidmətlərinin qiymətlərini deyil, həmçinin investisiya məhsul və xidmətlərin qiymətini, yəni topdansatış qiymətləri özündə birləşdirir. Müvafiq olaraq, bütün ölkə iqtisadiyyatı üçün tarif və qiymətlərin ümumi dinamikasını xarakterizə edir.

Deflyator indeksi, bir qayda olaraq, illik təyin edilir, daha uzunmüddətli dövr üçün deflyator daha öncə nəzərdən keçirilən zəncirvari metodla, yəni hesabat dövründən bazis dövrünə qədər olan aralıqda illik deflyatorların hasili yolu ilə hesablanır.

Statistikada toplu deflyator qismində beynəlxalq  milli hesablar sistemində mühüm makroiqtisadi göstərici olan ümumi daxili məhsul deflyatoru (üdmd) çıxış edir.

Deflyatorun hesablanması üçün ümumi daxili məhsulun istifadəsinin hər bir sonuncu istifadə komponenti əvvəlki ilin qiymətləri (daimi qiymətlər) ilə hesablanır. Əldə olunan nəticələr daha sonra toplanılır. Mövcud bazadan asılı olaraq ÜDM-in daimi qiymətlər çərçivəsində hər bir komponent üzrə yenidən hesablanması qiymət indeksi və fiziki həcm indeksi (və ya təbii indikator dinamikası) vasitəsilə həyata keçirilir.

Keçmiş dövrə nəzərən hesabat dövrünün ÜDM deflyatorunun özü hesabat dövrünün cari qiymətlər səviyyəsində ÜDM-in keçmiş dövrün daimi qiymətlər çərçivəsində ÜDM-ə bölünməsi ilə tapılır. Nəticədə, həm ÜDM-in fiziki həcminin dinamikasının, həm də onun bütün komponentlərinin qiymətləndirmək olur (İ.Yeliseyevanın redaktəsi altında, 2003-s.480.,).

Deflyatorluğun ikinci metodu (fiziki həcm indeksinin və ha təbii dinamika indikatorlarlnln köməyi vasitəsilə) qismən keçən ilin qeyd olunan xərclərinin təbii indikatorların dinamikası və ya işçilərin bu sektorda məşğulluğu əsasında əldə olunan indekslə ekstrapolyasiya edildiyi zaman dövlət və qeyri-kommersiya təşkilatlarının son istehlak xərclərinin daimi qiymətlər üzrə yenidən hesablanmasında istifadə olunur. İstehlak qiymətlərinin toplu indeksi və ÜDM deflyatoru inflyasiyanın mühüm göstəriciləri kimi çıxış edir. Dünya təcrübəsində inflyasiyanın uçotu hər hansı stabil konvertasiya olunan valyuta kursu üzrə mövcud

olan aktivlərin yenidən dəyərləndirilməsi yolu ilə, ya da rəsmi statistikada hesablanan inflyasiya indekslərinin köməyi ilə aparılır. Bu metod daha çox üstünlüyə malikdir və daha geniş yayılmışdır.

İnflyasiyanın nəticəsi - pulun alıcılıq qabiliyyətini aşağı düşməsidir. Pulun alıcılıq qabiliyyəti indeksi həyat səviyyəsinin xarakteristikası üçün mühüm rol oynayır. O, bazis və hesabat dövründə eyni pul məbləğinə əldə oluna biləcək məhsul və xidmətlərin dəyişməyən yığımının həcminin necə dəyişdiyini fadə edir. Müvafiq olaraq, bu, qiymət indekslərinə tərs mütənasib bir kəmiyyətdir:

$i_{pq} = \frac{1}{i_p} = \frac{\sum q_0 p_0}{\sum i_p q_0 p_0} = \frac{\sum q_0 p_0}{\sum q_0 p_1}$ (Nisbi-bazis indeksi nümunəsində) və

$$i_{p_q} = \frac{\sum \frac{1}{i_p} q_{1p_1}}{\sum q_1 p_1} = \frac{\sum q_1 p_0}{\sum q_1 p_1}$$

(Nisbi-cari indeks nümunəsində). Ümumi qiymət indeksi qismində ÜDM deflyatoru götürülür. (İ.Yeliseyevanın redaktəsi altında, 2003-s.482.)

## 2.2. Əhali istehlakının qiymətləndirilməsinin iqtisadi-riyazi modelləri

İstehlak modelləri - istehlak və onun əsas amilləri arasında əlaqəni ifadə edən iqtisadi - riyazi tərtiblərdir. İstehlak modelləri keçmiş dövr ərzində istehlak dinamikasının analizi və həmçinin gələcək dövr üçün proqnozların verilməsi üçün istifadə olunur.

Göstəricilərinin qiymətləndirmə metodlarına, istifadə edilmə istiqamətinə görə, modelə daxil olan dəyişənlərə və s. görə fərqlənən çoxlu modellər mövcuddur.

Asılı dəyişənlər qismində çıxış edən göstəricilər müxtəlif şkalalar üzrə ölçülə bilər. Metrik, sıra və nominal ölçülmə şkalaları mövcuddur. Metrik interval şkalası üzrə asılı dəyişən qismində göstəricidən istifadə olunduğu zaman modellərin aşağıdakı növləri fərqləndirilir:

- struktur;
- asılılıqların faktor modelləri;
- makroiqtisadi tələb və təklif modelləri.

Bu modellərin parametrləri çox zamanən kiçik kvadratlar metodu ilə müəyyən olunur və tələb və istehlakı proqnozlaşdırmağa, istehlakın differensasiyanı və elastikliyini analiz etməyə imkan verir.

Əgər asılı dəyişən metrik diskret şkala əsasında təyin edilən göstərici əsasında təqdim edilmişdirsə, bu zaman say modellərindən istifadə olunur.

Hadisənin neçə dəfə və keçmişdə hansı zamanda baş verməsindən və gələcəyə necə təsir etməsindən asılı olmayaraq, vaxt vahidi ərzində müəyyən təsadüfi hadisənin baş vermə sayı analizində verilmiş təsadüfi ölçünün təsviri üçün Puasson qanunu (1837-ci il) əsasında qurulmuş modeldən istifadə olunur:

$$P(x) = \frac{a^x \cdot e^{-a}}{x!},$$

harada ki, $P(x)$ – bu və ya digər amillərin ehtimal göstəricisidir, $a=x$ – sıranın orta riyazi göstəricisidir.

Verilmiş qanunu çox zaman nadir halların qanunu adlandırırlar. Puassonun bölüşdürmə qanunu zaman vahidi ərzində bizi maraqlandıran hadisənin həyata keçirilməsinin orta qiyməti kimi interpretasiya olunan və yeganə parametr olan a-dan asılıdır. Puassonun təsadüfi qiyməti zaman vahidi ərzində kütləvi xidmət sisteminə daxil olan xidmətlər üzrə tələblərin təsviri üçün bədbəxt hadisələr, nadir xəstəliklər və s. arasında qanunauyğunluğun təsviri üçün istifadə olunur.

Qiymət aralığı (0, 1) aralığında olan dəyişənlərin binar asılılıqlar funksiyasının təyini üçün probit modelə uyğun olan standart normal bölüşdürülmə funksiyasından və ya logit modelə uyğun olan logistik bölüşdürülmə funksiyasından istifadə olunur. İki və daha çox alternativdən ibarət olan külli seçim modelləri binar seçim modelləri əsasında qurulur. Bu zaman külli seçim binar seçimlərin ardıcıllığı kimi təqdim edilə bilər. İki və daha çox nəticəni əldə edə bilən binominal bölüşdürmənin ümumiləşdirməsi polinominal (multinominal) bölüşdürmə hesab olunur. Polinominal bölüşdürmə sosioloji, sosial-iqtisadi və tibbi seçmə tədqiqatlarda istifadə olunan, elementləri iki və daha çox kateqoriyaya bölünən böyük məcmu seçmənin statistik cəhətdən tədqiqi zamanı istifadə olunur. (V.Qerasenko., 1997, s. 320).

Modellərin tədqiq edilən vahidlərin cəmi üzrə deyil, müəyyən vahidlər qrupu üzərində qurulduğu digər modellər sinfi məhdud və yarımçıq seçmələrlə əlaqədardır. Model 1958-ci ildə Tobin tərəfindən təklif edilmiş və tobit model adlandırılmışdır. Yarımçıq seçmələrə asılı dəyişənin hadisə və ya məşğuliyyətin davamlılığı ilə xarakterizə olunduğu “həyat dövrü” sinfinin modelləri aiddir.

Alman statistiki E.Engel XIX əsrin sonunda gəlirin artması ilə qidalanmaya çəkilən xərclərin azalmasını, geyimə və mənzilə çəkilən xərclərin dəyişmədiyini, təhsilə və müalicəyə çəkilən xərclərin artmasını ifadə edən **istehlakın gəlirdən asılılıq modellərini** formalaşdırmış və təklif etmişdir.

Müxtəlif əmtəə növləri üçün istehlakın (y) gəlirdən (z) asılılığını xarakterizə edən Engel əyriləri aşağıdakı kimidir:

a) Azqiymətli yeyinti məhsulları (çörək və kartof) üçün istehlakın gəlirdən asılılığı bərabərtərəfli hiperbola bərabərliyi ilə ifadə olunur:

$$\hat{y} = a_0 + a_1 \frac{1}{z};$$

b) İstehlakın (geyim, meyvələr) və gəlirin proporsional dəyişməsi zamanı Engel funksiyası xətti asılılıq yaradır:

$$\hat{y} = a_0 + a_1 z;$$

c) Gəlirin artması ilə lkin ləvazimat məhsullarının istehlakı gəlirin artım səviyyəsindən geri qalır, asılılıq isə natural üstü qüvvət funksiyası ilə təsvir edilir:

$$\hat{y} = a_0 \cdot z \quad ,$$

harada ki, $a_1$ parametri istehlakın gəlirdən elastikliyi kimi şərh edilir;

d) Zinət əşyalarından istifadənin istehlakı ikinci sıralı parabola bərabərliyi ilə ifadə olunur:

$$\hat{y}=a_0+a_1z+a_2z^2.$$

Daha sonra istehlakın digər empirik “qanunları” da tapılmışdır. Bunlardan biri Şvabe (1868-ci il) qanunudur. Bu qanuna əsasən ailə nə qədər imkansız olarsa, xərclərin bir o qədər böyük hissəsi mənzilə sərf edilir. Rayt qanununa (1875-ci il) görə gəlir nə qədər yüksək olarsa, yığımın və onun xərclərdəki payı bir o qədər çox olar. Cini qanununa görə isə təsərrüfat xərcləri riyazi proqressiya zamanı artır və ya

azalırsa, digər xərc növləri əks istiqamətdə və həndəsi proqressiyada dəyişməyə yönəlir (V. qerasenko.,s.321).

Ehtiyyatların uçotunu nəzərə alan **dinamik model** X. Xautekker və L.Teylor tərəfindən işlənib-hazırlanmışdır.

$$C_j=a_0+a_1З+a_2I+\varepsilon,$$

harada ki, $C_j$ – istehlak;

З – məhsulun ehtiyyatı və ya ondan istifadə adəti;

*I* – gəlir:

*ε* – təsadüfi kəmiyyətdir.

Analitik və proqnoz hesablamaların aparılmasında reqressiya analizi əsasında qurulmuş istehlak modelləri geniş yayılmışdır. Reqressiya bərabərliyində funksiya qismində istehlak həcmi, sərbəst dəyişənlər qismində onun başlıca amilləri çıxış edir.

İstehlak və onun başlıca amilləri arasında xətti asılılıq halında model aşağıdakı şəkildə təqdim olunur:

$$y = a_0 + \sum_{j=1}^{m} a_j \cdot x_j$$

harada ki, *y* – konkret məhsulun və ya məhsul aqreqatının istehlakıdır; $x_j$(j ∈ 1: m) modeldə nəzərdə tutulmuş amillər; $a_0$,...$a_j$ – modelin parametrləridir.

Əgər əhali tərəfindən əmtəə və xidmətlərin ümumi həcmi analiz edilirsə, başlıca amillər qismində aşağıdakılar çıxış edir:

- ümumi daxili məhsulun tam həcmi;
- əhalinin pul gəlirlərinin həcmi;
- istehlak məhsullael üzrə pərakəndə satış qiymətləri indeksi;
- ödənişli xidmətlər üzrə tariflər indeksi.

Əgər ayrıca məhsulların istehlakı modelləşdirilirsə modelə əhalinin gəlirlərini xarakterizə edən amilləri, müvafiq məhsulların qiymətlərini və böyük ehtimalla verilmiş məhsulun xüsusiyyətləri ilə əlaqədar seçilən digər amilləri daxil etmək kifayətdir.

İnformasiyanın mənbəyindən asılı olaraq statistik uçot verilənlərinə və ailələrin seçmə müşahidəsinin verilənlərinə əsaslanan modellər fərqləndirilir. Birincinin üstün cəhətlərindən biri ondan ibarətdir ki, onlar istehlakın dinamikası və onun başlıca amillərini nəzərə ala bilirlər. İkincinin üstün cəhəti isə uçotun adambaşına düşən gəlir səviyyəsinə görə aparılmasıdır ki, bu da bütövlükdə və ayrıca məhsullar üzrə istehlakın həcmi və strukturuna böyük təsir göstərir. Lakin müəyyən riyazi - statistik prosedurların köməyi vasitəsilə büdcə statistikasını məlumatlarına əsaslanan istehlak modellərinə dinamik xarakter vermək mümkündür, istehlakın dövri sıraları üzrə qurulan və bir sıra amilləri müəyyənləşdirən modellərdə isə əhalinin gəlirlər üzrə bölüşdürülməsini nəzərə almağa imkan verir. Bu da hər iki modelin imkanlarını daha da genişləndirməyə imkan verir.

Uzunmüddətli istifadəyə yararlı olan texniki cəhətdən mürəkkəb olan məhsulların istehlak modellərininin qurulması xüsusi spesifikaya malikdir. Bu, onun istehlakının hansı göstəricilərdə hesablanmasından asılıdır. Əgər məhsuların illik satış həcmi göstəricilərindən istifadə olunursa istehlakın adi çoxfaktorlu reqressiya modelinə əlavə olaraq, bu məhsulların satış həcminə böyük təsir göstərən elmi-texniki amilin daxil edilməsi kifayətdir. Bu amil ümumi istehlak həcmində texniki cəhətdən mürəkkəb olan uzunmüddətli istifadə xarakterli yeni markaların payı kimi xarakterizə oluna bilər. Çox zaman (eyni zamanda beynəlxalq müqayisələrdə) uzunmüddətli istifadə xarakterli məhsulların istehlakı hər 100 ailəyə və ya 1000 nəfərə görə təminatlılıq göstəricisi ilə xarakterizə olunur. Bu halda uzunmüddətli istifadə xarakerli məhsulların istehlakının analizi və proqnozlaşdırılması üçün aşağıdakı kimi logistik funksiyalardan istifadə olunur:

$$y = \frac{H}{1 + a \cdot e^{bt}}$$

Harada ki, $y$ - uzunmüddətli istifadə xarakterli məhsulla əhalinin təminatlılıq səviyyəsidir; H – bu məhsulla təminatlılıq səviyyəsinin yuxarı həddi; $t$– zaman; $e$ – maddi loqarifmlərin əsası; a və $b$ –modelin parametrləridir (Akuliç M., 2009 - s.128.)

Konkret hallarda verilmiş bərabərliyə müxtəlif əlavə dəyişənlər və məsələnin spesifikası ilə əlaqədar olaraq parametrlər əlavə edilir. Təminatlılıq səviyyəsinin praktiki proqnoz hesablamalarının edilməsi zamanı təminatlılığın yuxarı həddinin (H) müəyyənləşdirilməsi başlıca rolu oynayır. Adətən H qismində ya təminatlılığın rasional normativlərindən istifadə olunur, ya da doyum nöqtələrindən istifadə olunur ki, həmin həddə çatdıqdan sonra ailələrin həmin uzunmüddətli istifadə xarakterli məhsul növlərindən təminatlılığının artımı baş vermir.

Əhalinin istehlakının analizi və proqnozlaşdırılması üçün daha mürəkkəb iqtisadi-riyazi modellərdən də istifadə olunur. Lakin təcrübənin göstərdiyi kimi istehlak modellərinin mürəkkəbləşdirilməsi onunla əldə olunan nəticələrin dəqiqliyinin çox zaman artmasına deyil, hətta proqnozu aşağı düşməsinə səbəb ola bilir. Həmçinin mürəkkəbləşdirilmiş modellər üçün çox vaxt kifayət qədər və əsaslı ilkin informasiyanı tapmaq olmur ki, bu da qiymət verilənlərindən istifadə edilməsinə gətirib çıxarır.

Tələb və istehlakın riyazi modelləri əhalinin istehlakının formalaşma proseslərinin analizi və proqnozlaşdırılması üçün instrumentari rolunda çıxış edir. Onlar şəxsi istehlakın həcmi və strukturunun və əhalinin tələbinin gəlirlərdən, qiymətlərdən və sosial- demoqrafik amillərdən asılılığını xarakterizə edir. Büdcə tipli məhdudiyyətlərlə istehlak davranışının optimizasiya modeli çox geniş yayılmışdır:

$$U(x) \to max \,,$$

$$\sum_{i=1}^{n} P^i x^i = B \,,$$

Harada ki, $U(x)$ – istehlakçının zövqünü xarakterizə edən istehlakın məqsəd funksiyasıdır; $x_i$ i məshulunun sayı, $x=(x_1,..., x_n)$, $n$ – baxılan məshulların sayı; $B$ – istehlakçının gəliri (büdcəsi),; $P_i$ – $i$ məhsulun bir ədədinin qiymətidir.

Model həm fərdi, həm də eynitərkibli istehlakçı qrupunun zövqlərini xarakterizə edə bilər. Sonuncu halda qrupa daxil olan istehlakçıların məhsulu eyni $P= (P_1, ..., P_n)$, qiymətə aldıqları nəzərdə tutulur, harada ki, $x$ – qrupun adambaşına düşən istehlak vektoru, $B$ – adambaşına düşən gəlirdir. Model mövcud

məhdudiyyətlər daxilində istehlakçıların zövqləriniin optimizasiyasına istiqamətləndiyi üçün real davranışı proqnozlaşdırmağa imkan verir (M. Akuliç, 2009 - s.128.).

$P$ və $B$-nin müxtəlif qiymətlərində hesablamalar apararkən $i$ məhsulunun istehlak həcmini qiymətlər və gəlirlərlə əlaqələndirən $i$ məhsulunun tələbinin $x_i=\varphi(P, B)$ funksiyalar sistemini əldə edirlər.

Tələb və istehlakın tətbiqi araşdırmalarında Stoun – Ciri xətti modeli geniş yayılmışdır. Burada məqsəd funksiyası $u(x) = \sum_i h_i \ln(x_i - c_i)$

formasında təyin edilir ki, burada $h_i$ - $i$ məhsulun istehlakının üstünlüyünü şərtləndirən əmsal; $c_i$ – onun istehlakının minimal həcmidir.

Bəzən modellərdə təkcə tələb funksiyalarının parametrləri qiymətləndirilir, istehlakın məqsəd funksiyası isə bilavasitə olaraq təyin edilmir. Müəyyən müddət ərzində tələbin qiymətlər və gəlirlərdən asılılıq xarakterinin dəyişmədiyi statistik modellərdən başqa, məqsəd funksiyasının dəyişən vəziyyətlərdən asılı olduğu dinamik modellər də işlənib-hazırlanmışdır. Uzunmüddətli istifadə xarakterli məhsullar halında müvafiq dəyişənlər əvvəlki dövr ərzində alışların hesabına yaranan ehtiyyatlar kimi, digər məhsullar halında isə cari istehlak səviyyəsinə təsir edən istehlakçının uzun müddət ərzində formalaşmış vərdişlərinin məcmusu kimi nəzərdən keçirilən psixoloji "ehtiyyat" kimi interpretasiya olunur.

Riyazi modellədirmə sosial-demoqrafik xarakteristikaların istehlakın həcmi və strukturuna təsiri analizində tətbiq olunur. Statistikada ilkin istehlak vahidi qismində ev təsərrüfatı (keçmiş zamanda ailə) çıxış edir. Ona görə də model qrupları (istehlak şkalaları) ev təsərrüfatının onun istehlak tələbi strukturuna təsirin həcmini və tərkibini əks etdirir.

Ev təsərrüfatlarının fərdi istehlak büdcələrinin müqayisəsi zamanı xərcləri (eyni zamanda büdcənin ayrı-ayrı bölmələri üzrə xərclər) ev təsərrüfatının yaş-cins tərkibinə görə normallaşdırmaq lazımdır (müvafiq düzəliş əmsalları vahid "istehlak şkalasında" birləşdirilir) (Akuliç M., 2009 - s.128.).

Əhalinin şəxsi istehlakının differensasiya xüsusiyyətləri əhalinin gəlir və xərclərinin differensial balans modeli çərçivəsində öyrənilir. Bu model əhalinin

gəlirinin strukturunu ailələrin iqtisadi tiplər, onların yaş-cins strukturu, yaşayış şəraiti üzrə differensasiyası üzrə detallı təsviri nəzərdə tutur.

Şəxsi istehlak sferasının inkişafının uzunmüddətli proqnozlaşdırılması zamanı əhalinin tələbinin dyişməsində yaranan tendensiyaları, onun strukturunun inersiyalılığını mütləqləşdirən genetik modellərin imkanları məhduddur. Şəxsi istehlak strukturunun normativ proqnoz modeli xüsusi əhəmiyyət kəsb etməyə başlayır. Onun başlıca vəzifəsi istehlakın strukturu və səviyyəsinin cari qanunauyğunluq spesifikaslndan və istehlakçının iqtisadiyyat haqqında müasir görüşünün tarixi cəhətdən məhdud olması təsirindən azad olan istehlak konsepsiyasını əks etdirməkdir.

### 2.3. Əhali istehlakının iqtisadi artımla əlaqə modeli

İstehlak maddi və qeyri-maddi istehsal üçün zəmin yaradır və özünün və ailə üzvlərinin rifahının təmin edilməsi üçün insanı iqtisadi fəaliyyətə sövq edir. Məhz tələbatların ödənilməsi zəruriyyəti istehsalçıları istehsalçıları həyat üçün lazımi nemətləri yaratmağa təşviq edir, yeni əmtəə və xidmətlərin yaranması isə insanların tələbatlarının inkişafını stimullaşdırır.

İstehlak prosesində tələbat ödənilir və istehsal olunan məhsul yoxa çıxır, lakin bu zaman tələbat yoxa çıxmayıb, yenidən yaranır, təkrar hasil olunur. Karl Marks yazır: "...İstehlak müəyyən məqsədlərə yönəlmiş tələbatı törədərək istehsalçıların qabiliyyətlərini üzə çıxardır. İstehsal bilavasitə olaraq həm də istehlakdır, çünki istehsal zamanı fərd istifadə olunan və aşınan, qismən əsas elementlərə bölünın istehsal vasitələrini istehlak edir". Müvafiq olaraq, istehsal yeni tələbatların yaranmasını törədərək, yeni istehlakı stimullaşdırır.

İqtisadi sistemin istehsal etdiyi son istehlak məhsullarının həcmi bu məhsulların rəqabətqabiliyyətliliyinin səviyyəsindən və inteqral istehlak dəyərindən, həmçinin istehlakçıların keyfiyyət səviyyəsindən, yəni insan kapitalının keyfiyyətindən asılıdır. Insan kapitalının keyfiyyəti nə qədər yüksək olarsa, o, təkcə kəmiyyətcə deyil, həm də keyfiyyətcə bir o qədər çox yaradır və istehlak edir. İstehlak iqtisadi sistemi irəliyə getməyə sövq edir. İstehlakı təmin edən mənbələr

gəlirlər və borclardır. Lakin əgər məcmu borcun artım tempi məcmu gəlirin artım tempini qabaqlayırsa, bu zaman pullar dəyərini itirməyə başlayır (Şəkil 4.)

**Şəkil 4. İnflyasiyanı törədən istehlak artımı**




**Mənbə:** (Akuliç M.,2009 - s.128).

Son zamanlarda istehlak sferasında yeni proseslər “post-sənaye cəmiyyətinin istehlakı” adlanan yeni istehlak növündən danışmağa imkan verir. Hal-hazırda, göründüyü qədər o, daha inkişaf etmiş ölkələrdə hələ tam formalaşmamışdır. Lakin bəzi amilləri artıq müşahidə etmək olur. Bunlara məhsul və xidmətlərin çoxluğu və istehsal və istehlak arasında, istehlak və investisiyalaşdırma arasında, iş və asudə vaxtın arasında getdikcə sərhədlərin aradan qalxdığı əhalinin başlıca kütləsinin yüksək maddi istehlak səviyyəsi aiddir. Istehlak strukturunda maddi nemətlərin istehlakını qabaqlayan xidmət istehlakının artımı müşahidə olunur. Xidmət istehlakında isə işgüzar, bilik və informasiyanın əldə edilməsi ilə bağlı olan xidmətlər birinci növbəyə çıxır.

Azərbaycan da dünya üzrə cəmiyyətin istehlak yığımına öz fəal töhfəsini qoyur, çünki o əhalinin pul gəlirlərinin böyük generatoru hesab olunur. Xammalın əldə edilməsi, daşınması və emalı ilə məşğul olan çoxlu sayda işçilərlə yanaşı, bu sektor kifayət qədər böyük olan infrastrukturu – başlıca istehlakçısı elə ixrac-xammal sektorunun özü və ya burada çalışan işçilər olan irihəcmli istehsalların geniş həcmini təchiz edir.

Son onillikdə iqtisadi artım fonunda enerji daşıyıcaları üzrə qiymətlərin kifayət qədər əlverişli konyunkturası Azərbaycan cəmiyyətinə istehlak mədəniyyətinin qərb nümunələrini tərkarlamaqla yenu istehlak sistemini

formalaşdırmağa imkan verdi. Hətta inflyasiya proseslərinin mənfi təsirləri Azərbaycanın post-sənaye cəmiyyətinə çevrilməsi tendensiyasını dayandırmağa imkan vermədi.

2007-ci illə müqayisədə 2017-ci ildə müqayisə olunan qiymətlərdə pərakəndə satış dövriyyəsi 475 % təşkil etmiş, əhaliyə göstərilən ödənişli xidmətlərin həcmi isə 368 % olmuşdur. DSK-nin məlumatlarına əsasən, 2007-ci ildən etibarən pərakəndəsatış əmtəə məhsullarının əmtəə dövriyyəsinin artan sıra ilə yüksəlişi qeyd olunur. Pərakəndəsatış əmtəə dövriyyəsinin artmasının əsas səbəblərindən biri əhalinin gəlirlərinin artmasıdır. Belə ki, 2007-ci illə müqayisədə 2017-ci ildə əhalinin gəlirləri 338 % təşkil etmişdir. Lakin maddi təminatlılığın müxtəlif səviyyələri qidalanma strukturunda uzunmüddətli istifadə xarakterli məhsullarla təminatlılıq və mənzillə təminatlılıq arasında olan fərqləri şərtləndirir. Artımın digər səbəblərindən biri istehlak kreditləşməsinin yüksək inkişafı olmuşdur (Azərbaycanın statistik göstəriciləri, 2017).

Stabil iqtisadi artımı təmin etmək üçün istehlakın stabil artımını dəstəkləməyə imkan verən stabil ödənişqabiliyyətli tələb əsas amillərdən biri hesab olunur . Bu zaman təkcə xarici bazara deyil, həm də daxili istehlaka yönəlmək lazımdır. Buna görə də iqtisadi sferada əsas üstünlüyü istehsaldan istehlaka keçirmək zəruriyyəti yaranır.

Ödənişqabiliyyətli tələbin genişləndirilməsi yolu ilə məcmu istehlakı stimullaşdırmaq və genişləndirməklə bazar tələbat olan məcmu məhsul və xidməylərin artması üçün şərait yaradır, deməli, bununla da stabil ümumi iqtisadi artım üçün də şərait yaratmış olur.

Dövlət tənzimlənməsinə təkcə bütün ödənişqabiliyyətli tələbi deyil, onun təkcə həqiqətən də istehlak prosesində (istehsal və şəxsi) realizasiya olunan hissəsi cəlb edilməlidir. Başqa sözlə desək, istehlak obyekti qismində səmərəli istehlak tələbi - əmtəə və xidmətlərin istehlak və təklifinin real artımını şərtləndirən tələb çıxış edəcəkdir. Azərbaycan iqtisadiyyatı qərb ölkələrinin iqtisadiyyatından istehlak səviyyəsinə görə geri qalır, buna görə də Azərbaycan iqtisadiyyatı üçün istehlakı stimullaşdıran ödənişqabiliyyətli tələbi tənzimləmək daha məqsədəuyğundur.

Azərbaycanda istehlak səviyyəsinin aşağı olması ölkədə milli sərvətin və gəlirlərin əhali üzrə bölüşdürülməsinin qeyri-bərabərliyi və polyarlığıdır.

İstehlak cəmiyyəti kapitalizmin inkişafının məntiqi nəticəsi kimi ortaya çıxır. Iqtisadi və texnoloji irəliləyiş onun üçün şərait yaradır, lakin bu iqtisadiyyata aid olan bir şey deyil.

Genişhəcmli istehlak əmtəələrinin istehsalının müasir texnologiyaları bu cəmiyyətin yetişkin olmayan kapitalizm kontekstində inkişafına şərait yaradır. Məhz bu sintez müasir Azərbaycan üçün də xarakterikdir. Istehlak cəmiyyətinin imkanlarından istifadə etmək imkanlarına görə fərqlənən sosial təbəqələşmə formalaşır.

İstehlakın qərb mədəniyyəti Azərbaycana kütləvi şəkildə nüfuz edir, istehlak tələblərinin inqilabı baş verir, xarici nümunələri təkrarlamaqla istehlak vasitələrinin yeni sistemi formalaşır, öz maddi imkanlarına görə inkişaf etmiş ölkələr qrupunun imkanlı təbəqəsinin həyat tərzini yaşamağa imkan verən əhali təbəqəsi yaranmışdır.

İnkişaf edən ölkələrin problemləri üzrə iri mütəxəssis olan M. Torado öz məşhur kitabında dünya ölkələrinin sənaye inkişafı meyarına görə beş qrupa bölündüyü Q. Kanın tədqiqatına istinad edir, burada hər bir qrup üçün adambaşına düşən illik səviyyəsi müəyyən edilmişdir. Məlumatlar aşağıdakı cədvəldə təqdim edilmişdir (Cədvəl 5).

**Cədvəl 5. Sənaye inkişafı meyarı üzrə adambaşına düşən gəlirə görə ölkələrin mənsubiyyəti**

| Ölkələr | Adambaşına düşən gəlir, dollarla |
|---|---|
| **Sənayeyəqədərki** | 50-200 |
| **Qismən sənayeləşmiş** | 200-600 |
| **Sənaye** | 600-1500 |
| **İnkişaf etmiş sənaye** | 1500-4000 |
| **Post-sənaye** | 4000-20000 |

**Mənbə:** M.Toradonun elmi araşdırması zamanı əldə etdiyi göstəricilər əsasında müəllif tərəfindən tərtib edilmişdir

"McKinsey Global Institute"un tədqiqatlarına əsasən, son 20 il ərzində illik ÜDM artımı 5 faizdən çox olan ölkələrin siyahısının dərc olunduğu hesabatında Azərbaycan adambaşına düşən ÜDM artımı üzrə 11 lider ölkənin yer aldığı siyahıda ikinci yeri tutub. "McKinsey Global Institute"un məlumatına görə, 1996-2006-cı

illər aralığında Azərbaycanda adambaşına düşən real ÜDM artımı 8,2% təşkil etmişdir.

Adambaşına düşən gəlirin həcmi 2008-ci ilin sonunda ÜDM Azərbaycanda 31468 mln. AZN və ya 79181 mln. USD (ÜDM(AQP)) təşkil etmişdir.

Adambaşına düşən ÜDM 3670 AZN və ya 9183 USD (ÜDM(AQP)) təşkil etmişdir və beynəlxalq müqayisədə Azərbaycan 82-ci yerdə qərarlaşmışdır (Durlauf, Steven N., 2008).

İstehlak cəmiyyəti cəhətdən ən inkişaf etmiş ölkə – dünya üzrə ÜDM-in 20 %-ni istehsal edən, 40 %-ni istehlak edən ABŞ-dır. Inkişaf etmiş istehlak bazarı sayəsində ABŞ dünya bazarında aparıcı mövqelərə sahibdir. ABŞ-da iqtisadi artımın başlıca qüvvəsi istehlakdır.

Artıq XX əsrin sonunda4 nəfərdən ibarət tipik amerikan ailəsi 30 min dollardan 40 min dollaradək və daha çox məcmu gəlirə sahib idi. ABŞ Əmək Nazirliyinin qiymətləndirmələrinə əsasən, 1996-2006-ci illər periodunda şəxsi istehlak fondu 23 % artmış, 2006-ci iləd onun payına düşən ÜDM 67,6 % təşkil etmişdir. Azərbaycan üçün gəlirlərin differensasiyasına görə müxtəlif əhali qruplarının ərzaq məhsullarının istehlakı üçün qeyri-bərabərlik xarakterikdir. Bu differensasiya nə qədər çox olarsa, istehlakda qeyri-bərabərliyin dərəcəsi də bir o qədər çox olur.

Biz hesab edirik ki, Azərbaycan kifayət qədər yüksək inkişaf etmiş maliyyə bazarına sahib olmadığı üçün, istehlak cəmiyyətli post-sənaye ölkəsi deyil. Məhz daxili ödənişqabiliyyətli tələb istehsal üçün stimullar yaradır. Qərbi Avropa ölkələrində onu əsasən orta sinif formalaşdırır.

Bunun üçün bizim mülkiyyətçi və istehlakçıların orta sinfini formalaşdırmaq üçün daha qərarlı və kardinal tədbirlərimiz görülməlidir. Orta sinif – daxili bazarın başlıca istehlakçısıdır.

Aydındır ki, iqtisadi artım öz-özlüyündə deyil, əhalinin rifahının yüksəldilməsi üçün əsas kimi dəyərlidir, ona görə də, artımın keyfiyyət qiymətləndirməsi çox zaman istehlak dinamikasının qiymətləndirilməsi vasitəsilə aparılır (Qrafik 2) .

**Qrafik 2. 2007-2017-ci illər üzrə ev təsərrüfatlarında ayda adambaşına düşən istehlak xərcləri**




**Mənbə:** Statistika Komitəsinin 2017-ci il üçün rəsmi göstəriciləri əsasında müəllif tərəfindən tərtib edilmişdir

Bununla yanaşı yaranmış cəmiyyətlərin dünya təcrübəsi göstərir ki, xüsusilə də keçid dövründə situasiyaya nəzarət etmək lazımdır. Əksər vaxtlarda məhz istehlakçı bazarı iqtisadiyyatın bütün sahələrində, onları rəqabətqabiliyyətli məhsul istehsal etməyə sövq etməklə, təkamülün başlıca hərəkətverici qüvvəsinə çevrilir.

Göründüyü kimi, hal-hazırda inkişaf etmiş qərb ölkələri nümunəsində yeni istehlak tipinə keçid Azərbaycan cəmiyyətinin əsas prioritetlərindən biridir.

# III Fəsil AZƏRBAYCANDA ƏHALİ İSTEHLAKININ PROQNOZLAŞDIRILMASI MƏSƏLƏLƏRİ

## 3.1. Azərbaycanda əhalinin gəlir və istehlakının indeksləşdirilməsi

Dünyada əhalinin gəlirlərinin qorunması məqsədilə çox zaman inflyasiya proseslərindən müdafiənin müxtəlif metodlarından istifadə edilir. Bunlardan ən inkişaf etdirilmiş metod qiymət və tariflərin artmasından dolayı yaranan xərcləri kompensasiya etməklə, əhalinin pul gəlirlərinin artırılmasına yönəldilmiş gəlirlərin indeksləşdirilməsi hesab edilir. Vətəndaşların sosial müdafiəsinin belə forması, hər şeydən öncə, sosialyönümlü bazar tipinə əsaslanan iqtisadiyyatın olduğu dünya ölkələrində öz əhəmiyyətini və mühümlüyünü sübuta yetirmişdir.

İndeksləşdirmə vətəndaşların dövlət sosial müdafiə sisteminin bir hissəsidir və o, əhalinin, xüsusilə sosial cəhətdən aztəminatlı əhali qruplarının - pensiyaçıların, fiziki qüsurlu şəxslərin, natamam və çoxailəli ailələrin, həmçinin gənclərin pul gəlirlərinin alıcılıq qabiliyyətinin saxlanılmasına yönəldilmişdir.

Əhalinin pul gəlirlərinin indeksləşdirilməsi bəzi hallarda təkmilləşdirilə və əhalinin gəlirləri və yığımında olan itkilərin dövlət təzminatının digər tədbirləri, məsələn, işçilərin əmək haqqı səviyyəsinin dövrü nəzərdən keçirilməsi, sosial transfertlərin (pensiya, təqaüd, sosial təminatın və s.) artırılması ilə əvəz edilə bilər.

Müasir dünyada istifadə edilən statistik metodlar hesabına qiymət indeksləri vasitəsilə qiymət və tariflərin artması zamanı yaranmış əhalinin əlavə itkilərini hesablamaq və bununla əhalinin gəlirlərinin artım kəmiyyətini müəyyənləşdirmək mümkün oldu. Lakin məsələ orasındadır ki, indeksləşdirmənin yerinə yetirilmə mexanizmi əhalinin gəlirlərinin dəyərdən düşməsini hansı effektivliklə qoruya bilər və qiymət və gəlirlərə əks istiqamətdə necə təsir edə bilər.

Gəlirlərin indeksləşdirilməsi əhalinin sosial qrupları üzrə aparılmalıdır. Tam indeksləşdirmənin yerinə yetirilməsi mümkün deyil, çünki onun yerinə yetirilmədiyi gəlirin sərhəd səviyyəsi mövcuddur (O.Q. Məmmədli, N.Ə.Cavadov, X.N.Cavadzadə. s. 58-64). Gözlənilən (qiymətlərin proqnozlaşdırılmış artımı ilə) və retrospektiv (əvvəlki dövr ərzində qiymətlərin artımı ilə) indeksləşdirmə fərqləndirilir. Bu zaman fiksə

edilmiş məhsul və xidmətlər yığımı üzrə gəlirlərin redaktə edilməsi üçün özünəməxsus əlamət kimi çıxış edən qiymət indeksinin artma həddi müəyyən edilir.

Bazis qismində istehlak bazarının bütün sahələrində əvvəlki indeksləşdirmə ilə hesablanan  yaşayış minimumu üçün təyin edilmiş məhsul yığımı üzrə istehlak qiymətləri indeksi kəmiyyəti çıxış edir.

İndeksləşdirmə həddi və onun tətbiq edilmə qaydası, həmçinin indeksləşdirmənin dövrülüyü qanunvericilik, sazişlər və kollektiv müqavilələri ilə müəyyə edilir.

İndekləşdirmə əhalinin birdəfəlik xarakter daşımayan pul gəlirlərinə, yəni dövlət pensiyaları, stipendiyalar,  müvazinətlər, əmək haqqı, əmək vəzifələrinin yerinə yetirilməsi ilə bağlı dəymiş ziyana görə zərərin ödənilməsi məbləği və s. tətbiq edilir. İndeksləşdirmə mülkiyyətə görə əhalinin pul gəlirlərinə tətbiq edilmir, çünki onlar azad qiymət əmələgəlməsi şəraitində formalaşır və onların əlavə müdafiəyə ehtiyacı yoxdur. Banklarda olan əmanətlər qismində əhalinin yığımlarının dəyərdən düşməsinə görə zərərin ödənilməsi əsasən qiymətlər indeksinin uçotu ilə faiz dərəcələrinin dəyişdirilməsi vasitəsilə, yəni kompensasiya üsulu ilə həyata keçirilir (O.Q. Məmmədli, N.Ə.Cavadov, X.N.Cavadzadə. səh 58-64).

Dünya təcrübəsində əhalinin gəlirlərinin indeksləşdirilməsinin iki əsas formasından istifadə edilir: avtomatik və yari-avtomatik indeksləşdirmə. Avtomatik indeksləşdirmə gəlirlərin qiymət artımına proporsional olaraq artmasını nəzərdə tutur. Yarı-avtomatik indeksləşdirmə həmçinin razılaşdırılmış indeksləşdirmə adlandırılır. Dövlət səviyyəsində işəgötürənlər, həmkarlar ittifaqı, dövlət orqanlarının nümayəndələri və həmçinin alim-ekspertlər arasında danışıqlar aparılır. Danışıqlar nəticəsində kollektiv müqavilələrin bağlanması zamanı sosial müdafiə üçün aşağı həddin təyin edilməsi üzrə məsləhətlər verilir. Hər bir müəssisədə işçilərin sosial müdafiəsinin müxtəlif tədbirlərini özündə birləşdirən kolllektiv müqavilə bağlanılır.

Əhalinin pul gəlirlərinin indeksləşdirilməsinin əsas prinsipləri aşağıdakılar hesab edilir:

- əhaliyə pul vəsaitlərinin indeksləşdirilməsi hüququnun dövlət tərəfindən zəmanətliliyi;

- sosial siyasətin digər tədbirləri ilə müqayisədə sosial müdafiəyə eytiyyacı olan əhali təbəqəsinin həyat səviyyəsinin saxlanılması prioriteti;

- əhalinin gəlirlərinin növündən, gəlir mənbəyindən və onun mənsub olduğu sosial qrupdan asılı olaraq gəlirlərin indeksləşdirilməsinə differensasiya edilmiş yanaşma;

- minimum istehlak büdcəsinə (yaşayış minimumu) daxil olan məhsul və xidmətlərə olan istehlak qiymətlərinin hesablanması metodologiyasının vahidliyi;

- vergi qoyuluşunun tariflərinin dəyişməsi zamanı indeksləşdirmə ilə bağlı artan gəlirlərin saxlanılması;

- gəlir mənbələri və indeksləşdirmənin vahidliyi;

- indeksləşdirmə ilə bağlı tədbirlərin ictimaiyyətə açıq olması. (Qolubenko V., 2004-cü il, səh81-85.)

Gəlirlərin və əmək haqqı səviyyəsinin tənzimlənməsində ən böyük problem onun indeksləşdirilməsinin səmərəli mexanizminin yaradılmasından, yəni istehlak məhsullarının və xidmətlərin bahalaşmasını qismən və ya tamamilə əvəzləməklə, dövlət və ya işəgötürənlər tərəfindən vətəndaşların pul gəlirlərinin artırılımasından ibarətdir.

Differensial yanaşma əsasında gəlir və əmək haqqının indeksləşdirilməsi iqtisadi cəhətdən özünü doğrultmuşdur. Tam indeksləşdirmə (əmək haqqının və digər ödəmələrin faizinin qiymət və tariflərin artım faizinə olan nisbəti) mümkün mümkün olmadığından ona ehtiyyac yoxdur, çünki gəlirlərin son səviyyəsindən yuxarı indeksləşdirmə inflyasiya spiralini daha da "sıxlaşdıracaq". Bundan əlavə çalışan vətəndaşların gəlirlərinin qismən artımı əmək haqqının artırılması, əmək haqqının həvəsləndirici artımları hesabına ödənilən əməyin kəmiyyət və keyfiyyət nəticələrinn yaxşılaşdırılması hesabına mümkündür.

Əhalinin gəlirlərinin indeksləşdirilməsi birmənalı qiymətləndirilimir. Bir tərəfdən, o, əhalinin bəzi qruplarının müəyyən həyat səviyyəsinin təmin edilməsini dəstəkləyir. Digər tərəfdən, indeksləşdirmə əməyin stimullarını aşağı sala bilər, anti-

inflyasiya siyasətinin reallaşdırılmasını ləngidə bilər. Ona görə də bir çox ölkələrdə əhalinin gəlirlərinin indeksləşdirilməsi daimi xarakterdən daha çox, epizodik xarakter daşıyır.

Azərbaycanda əhalinin gəlirlərinin indeksləşdirilməsi "Azərbaycan Respublikasında vətəndaşların pul gəlirlərinin və əmanətlərinin indeksləşdirilməsi haqqında" qanunla tənzimlənir.

Bundan əlavə dünya təcrübəsi göstərir ki, istehlak qiymətlərinin artımı ilə əlaqədar vətəndaşların pul gəlirlərinin və yığımının dövlət tərəfindən artırılması mexanizmi kimi indeksləşdirmə pul gəlirlərinin və yığımların alıcılıq qabiliyyətini saxlamağa imkan verir. Indeksləşdirmə çox zaman digər tədbirlərlə uzlaşdırıla bilər, bəzi hallarda isə gəlirlərin dövlət tənzimlənməsinin digər metodları ilə əvəz edilə bilər (əmək haqqı səviyyəsinin, pensiyaların, sosial müvazinətlərin həcminin yenidən nəzərdən keçirilməsi). Belə tədbirlər periodik olaraq həyata keçirilir, lakin dövlət təminatlarının artırılması tempi qiymət artımından geri qaldığına görə onlar öz məqsədlərinə nail olmur.

Pul gəlirlərinin indeksləşdirməsi üzrə qanuna uyğun olaraq indeksləşdirmə obyektləri aşağıdakılardır:

- müəssisələrin, idarələrin və təşkilatların (bundan sonra müəssisələr adlanacaqdır) işçilərinin əmək haqqı;
- birdəfəlik müavinətlər istisna olmaqla, dövlət pensiyaları, təqaüdlər, sosial müavinətlər (uşaqlı ailələrə, işsizliyə görə, ştatların ixtisarı, müvəqqəti əmək iqtidarsızlığı ilə, hamiləliklə əlaqədar verilən və başqa müavinətlər);
- vətəndaşların Azərbaycan Respublikasının Əmanət Bankında olan əmanətləri;
- Azərbaycan Respublikasının dövlət istiqrazları və digər dövlət qiymətli kağızları, Azərbaycan Respublikasının dövlət sığorta orqanlarına verilən haqlar (E. Şestakova., səh. 3-18).

Praktikada qanunvericilik tərəfindən əhalinin pul gəlirlərinin indeksləşdirilməsi ilə əlaqədar müəyyən edilmiş tədbirlər tam şəkildə həyata keçirilmir. Gəlirlərin artım tempinin istehlak məhsullarının qiymətlərinin və

xidmətlər üzrə tariflərin artım tempindən əhəmiyyətli dərəcədə geri qalması əhalinin real gəlirlərinin aşağı düşməsinə səbəb olur.

İndeksləşdirmə həddi mühüm rola malikdir, bu, əhalinin gəlirlərinin indeksləşdirilməsinin başladığı istehlak qiymətləri indeksinin qiymətini göstərir. Azərbaycanda indeksləşdirmənin həyata keçirilməsi üçün əsas istehlak qiymətləri indeksinin 5 faizlik həddi keçməsi hesab edilir.İstehlak qiymətlərinin indeksinə dair məlumat hər kvartal mətbuatda dərc edilir. İndeksləşdirmənin formaları itkilərin əvəzlənməsinin miqyaslarına görə fərqləndirilir və əhalinin pul gəlirləri və əmanətləri müvafiq ödənişlərin verildiyi mənbələr hesabına indeksləşdirilir.

İndeksləşdirmə haqqında qanuna əsasən əhalinin pul gəlirləri və əmanətlərinin vəsait mənbələri qismində aşağıdakılar çıxış edir:

- büdcə müəssisələri (səhiyyə, xalq təhsili, elm, mədəniyyət idarələri və başqa idarələr) işçilərinin əmək haqqının, sosial pensiyaların və müavinətlərin indeksləşdirilməsi üçün müvafiq büdcələrdən ayrılan təxsisat;

- tənzimlənən dövlət qiymətləri və tarifləri üzrə məhsul satan (xidmətlər göstərən) müəssisələrin işçilərinin əmək haqqından ötrü vəsait müəssisələrdən asılı olmayan səbəblərə görə çatışmadıqda, həmin işçilərin əmək haqqının indeksləşdirilməsi üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada büdcə vəsaiti;

- istehsal etdikləri malların və göstərdikləri xidmətlərin qiymətlərini müstəqil müəyyən edən müəssisələrin, ictimai təşkilatların (birliklərin) və onların müəssisələrinin işçilərinin əmək haqqının indeksləşdirilməsi üçün—müəssisələrin və təşkilatların öz vəsaiti;

- dövlət əmək pensiyalarının indeksləşdirilməsi üçün—Azərbaycan Respublikası Pensiya fondunun vəsaiti;

- Azərbaycan Respublikasının sosial sığorta fondundan ödənilən <sosial müavinətlərin indeksləşdirilməsi üçün-bu fondun vəsaiti;

- işsizlik müavinətlərinin indeksləşdirilməsi üçün-Azərbaycan Respublikası Dövlət əhalinin məşğulluğuna kömək fondunun vəsaiti;

- dövlət təqaüdlərinin indeksləşdirilməsi üçün-müvafiq büdcələrdən ayrılan təxsisat;

- vətəndaşların Azərbaycan Respublikasının Əmanət Bankında olan əmanətlərinin indeksləşdirilməsi üçün-bankın gəlirləri;

- Azərbaycan Respublikasının dövlət qiymətli kağızları və dövlət istiqrazları üzrə gəlirlərin indeksləşdirilməsi üçün - Azərbaycan Respublikasının dövlət büdcəsindən ayrılan təxsisat;

- Azərbaycan Respublikasının dövlət sığorta orqanlarına ödənilən haqların indeksləşdirilməsi üçün-bu haqların hesabına yerləşdirilən vəsaitin faizdərəcələrinin artmasından Dövlət Sığorta İdarəsinin götürdüyü gəlirlər (Azərbaycan Respublikasının Konstitusiyası., Maddə 6).

Qanunvericilik bazası və ölkədə pensiya təminatının kifayət qədər mükəmməl olmaması, əhalinin böyük hissəsinin pensiyalarının yaşayış minimumundan aşağı olmasına gətirib çıxarmışdır. Bununla əlaqədar indeksləşdirmə prinsipləri aşağıdakı dövlət tədbirlərinin yerinə yetirilməsini tələb edir:

- Pensiyaların yaşayış minimumu səviyəsinədək qaldırılması;

- İstehlak qiymətləri indeksinin dinamikasından asılı olaraq pensiyaların səviyyəsinin ardıcıl şəkildə korrektə edilməsi.

Əhalinin pul gəlirlərinin indeksləşdirilməsi hər bir konkret halda iqtisadiyyatın maliyyə-kredit sferasının, pul dövriyəsi sferasının, qızıl-valyuta ehtiyyatlarının vəziyyətindən və s., həmçinin indeksləşdirmənin seçilmiş tipindən, inflyasiyanın səviyəsi və növündən həmçinin digər amillərdən asılıdır.

İndeksləşdirmənin ayrıca obyektlərinin korrektə edilmə ölçüsü aşağıdakı formul əsasında hesablanır:

$$O_{ki} = O_{bi} \times K_i$$

Harada ki, $O_{ki}$ = indeksləşdirmənin i-ci obyektinin korrektə edilmiş baza ölçüsü;

$O_{bi}$ = indeksləşdirmənin i-ci obyektinin baza ölçüsü;

$K_i$ = indeksləşdirmənin i-ci obyektinin korrektəedici əmsalı.

Dünya təcrübəsində qeyd edildiyi kimi, qeyri-istehsal sferasında qiymətlərin indeksləşdirilməsinin mənbəyi kimi dövlət büdcəsi və onunla bağlı olan aşağı səviyyəli büdcələrin vəsaitləri çıxış etdiyi halda, büdcə gəlirlərinin indeksləşdirilməsi isə istehsal və qeyri-istehsal sferasının sahələrində əmək haqqı ilə istehlak malları üzrə qiymətlərin və ödənişli xidmətlər üzrə qiymət artımı indeksinin müqayisəsi əsasında aparılır.

Bizim ölkədə təsərrüfatçılıq təcrübəsi əmək haqqının əhalinin gəlirlərinin təxminən ¾-nün təşkil etməsinə gətirib çıxarmışdır, ona görə də əhalinin şəxsi gəlirlərinin bu hissəsinin qorunması üzrə tədbirlər xüsusi əhəmiyyətə malikdir. Bu zaman aparıcı rolua müəssisələrin və təşkilatların özü başçılıq edir. Bölüşdürülmə, yəni iqtisadi hüquq və məsuliyyətin dövlətdən rəhbərlərə (sahiblərə) ötürülməsi əsasında əmək haqqı səviyyəsinin və onun indeksləşdirilməsinin tənzimlənməsi aparılır. Bunun üçün stavkaların tarif sistemindən və borc məvaciblərindən istifadə edilir. Dövlət isə qiymətlərin dinamikası və tariflərlə vergi qoyuluşu təcrübəsi ilə əlaqədar əməyin ödənilməsi üzrə fondların yaradılması hüququnu özündə saxlayır.

İndeksləşdirmə ilə bağlı artan pul gəlirinin həcmi indeksləşdirilən gəlirin istehlak qiymətlərinin indekslərinə vurulması yolu ilə müəyyən edilir. Bu zaman indeksləşdirmənin minimal zəmanətlərini müəyyən edən korrektəedici əmsallardan, şkalalardan və digər normativlərdən, həmçinin əmək müqavilələri və kollektiv sazişlər tərəfindən nəzərdə tutulan şərtlərdən istifadə edilə bilər.

Əhalinin real gəlirləri əmtəə və xidmətləri qiymətlərindən asılı olduğu üçün inflyasiyanın səviyyəsi əhalinin gəlirlərinə birbaşa təsir edən amillərdən biridir. İnflyasiyanın əhalini real gəlirlərinə təsirini müyyənləşdirmək üçün əmtəə və xidmətlərin qiymətləri üzrə istehlak qiymətləri indeksi kimi göstəricidən istifadə edilir.

İstehlak qiymətləri indeksi cari periodda əmtəə və xidmətlərin fiksə edilmiş yığımının faktiki qiymətinin bazis (əvvəlki) dövrün qiymətlərinə olan nisbətini göstərir. Azərbaycan Respublikasında istehlak qiymətlərinin indeksi əhalinin minimum istehlak büdcəsini hesablamaq üçün qəbul edilmiş istehlak malları və xidmətlər səbətinə uyğun olaraq dövlət, kooperativ ticarətində və xüsusi ticarətdə

qiymətlərin, habelə mülkiyyət formasından asılı olmayaraq bütün xidmət sahəsi obyektlərində pullu xidmət tariflərinin dəyişilməsinin müşahidəsi nəticəsində əldə edilmiş statistika məlumatı əsasında hesablanır ("Azərbaycan Respublikasında vətəndaşların pul gəlirlərinin və əmanətlərinin indeksləşdirilməsi haqqında" Azərbaycan Respublikası qanunu, Bakı şəhəri, 17 iyun 1992-ci il, № 174 maddə 2).

İQİ - inflyasiyanın səviyyəsini göstərən mühüm göstəricidir. O, dövlət siyasətinin məqsədləri üçün, iqtisadiyyatda qiymət proseslərinin analizi və proqnozu üçün, minimal sosial təminatlarin yenidən nəzərdən keçirilməsi üçün, hüquqi məsələlərin həlli üçün istifadə olunur. İQİ Azərbaycanda ayrı-ayrı regionlar və bütövlükdə ölkə qiymət dəyişikliklərinin bu əmtəə və xidmətlərə təsiri altında bazis (əvvəlki) dövrə münasibətdə cari dövrdə əmtəə və pullu xidmətlər üzrə əhalinin istehlak xərclərinin ümumi həcmində dəyişikliklərinin xarakteristikası üçün hesablanır.

Azərbaycanda istehlak qiymətlərinin hesablanmasına 1990-ci illərin əvvəlindən başlanılmış və onunla bağlı metodologiyanın təkmilləşdirilməsi Dövlət Statistika Komitəsi tərəfindən aparılmış və inkişaf etdirilmişdir.

**Qrafik 3. Azərbaycanda 2007-2017–ci illər ərzində istehlak qiymətləri indeksi**




**Mənbə:** azstat.gov.az

Azərbaycanda əhalinin istehlakı ilə bağlı dinamikanı daha dərindən öyrənmək üçün statistik məlumatlara əsasən son on il ərzində istehlak qiymətləri indeksinin dəyişməsinə nəzər salaq (Qrafik 3).

Qrafikdən göründüyü kimi istehlak qiymətləri indeksi sabit olmamış və onun qeyri-sabitliyinə ölkə daxilində və xaricində baş verən bir sıra amillər təsir göstərmişdir. 2010-2011-ci illər ərzində qiymətlərin əhəmiyyətli artımı baş vermiş, 2011-ci ildən 2012-ci ilə qədər isə qiymətlərin kəskin şəkildə aşağı düşməsi müşahidə edilmişdir. 2012-2015-cü illər ərzində istehlak qiymətləri indeksi böyük dəyişikliklərə məruz qalmamış, inflyasiyanın səviyyəsi sabit qalmışdır. 2016-cı ilin əvvəlindən istehlak qiymətləri indeksi kəskin şəkildə artmış və yuxarıya doğru artmağa başlamışdır. Buna səbəb, qeyd edilən dövrdə xarici bazarda enerji resurslarının, xüsusilə neftin qiymətinin sürətli şəkildə aşağı düşməsi və bunun nəticəsi olaraq milli valyutanın aşağı düşməsi və idxal məhsullarının qiymətinin artması səbəb olmuşdur.

### 3.2. Azərbaycanda əhali istehlakının əsas makroiqtisadi göstəricilərinin proqnozlaşdırılması

Başlıca makroiqtisadi göstəricilərin proqnozlaşdırılması gələcəkdə müəyyən vaxt çərçivəsi üçün həyata keçirildiyindən proqnozların qurulması zamanı Azərbaycanda və dünyada başlıca makroiqtisadi göstəricilərin dinamikasını müqayisə etmək lazım gəlir. Dövlət çərçivəsində ÜDM-in dinamikası və həcminin, qiymətlərin dinamika indeksinin, əmtəələrinreallaşdırılması həcminin, investisiyaların, əmək haqqı xərclərinin, gəlirin, idxal və ixrac göstəricilərinin dinamikasının proqnozunu həyata keçirmək tələb olunur. Bu proqnozlardan gələcəkdə müxtəlif nazirliklər və qurumlar tərəfindən tədqiqat və araşdırmaların aparılması üçün istifadə edilir. Proqnozlaşdırmanın bütün formal prosedurları keçmiş təcrübənin qeyri-müəyyən gələcəyə keçirilməsini nəzərdə tutur. Beləliklə, onların hamısı əvvəl əldə edilmiş məlumatların yaranma şəraiti gələcəkdə olan şəraitlərdən fərqlənmədiyini nəzərdə tutur.

Məlum olduğu kimi əhalinin istehlakı iqtisadi artımın başlıca hərəkətverici qüvvəsi kimi çıxış edir. Uzunmüddətlli perspektvidə istehlak ÜDM-in artımının başlıca amillərindən biri olaraq qalır. Istehlak hər zaman olduğu kimi, ÜDM-in artım tempi ilə müqayisədə daha sürətlə artmağa davam edəcək, halbuki onlar arasında fərq çox da böyük olmayacaq. Ona görə də əhalinin istehlakının proqnozlaşdırılması zamanı ÜDM-in artım tempinin və mexanizminin daha yaxından öyrənilməsi tələb edilir (Boriseviç V., Q. Kandaurovanın redakrotluğu altında. səh 432-434).

Proqnozlaşdırmanın həyata keçirilməsi prosesi müəyyən ardıcıllıqla yerinə yetirilir. Belə ki, proqnozlaşdırılmaprosesində aşağıdakı beş mərhələni fərqləndirmək olar:

- Məlumatların toplanması;
- Məlumatların reduksiyasi və ya sıxlaşdırılması;
- Modelin qurulması və onun qiymətləndirməsi;
- Seçilmiş modelin ekstrapolyasiyası (faktiki proqnoz);
- Alınmış proqnozun qiymətləndirilməsi (Boriseviç V., Kandaurovanın redakrotluğu altında. səh 432-434).

Mərhələ 1. Verilənlərin toplanması düzgün məlumatların əldə edilməsini və onların düzgünlüyünün məcburi yoxlanılmasını nəzərdə tutur. Bu mərhələ çox zaman proqnozlaşdırma prosesinin ən şübhəli hissəsi hesab edilir və eyni zamanda onun yoxlanılması çox mürəkkəbdir, çünki növbəti mərhələlər tədqiq olunan problemə uyğun olub olmamasından asılı olmayaraq istifadə edilən məlumatlarla eyni müvəfəqiyyətlə həyata keçirilə bilər. Təşkilatda müəyyən məlumatları əldə etmək tələb olunduğu zaman onların toplanması və yoxlanması mütləq şəkildə bir sıra problemlərlə qarşılanır.

Mərhələ 2. Verilənlərin reduksiyası və ya sıxlaşdırılıması çox zaman lazımlə hesab edilir, çünki proqnozlaşdırmanın yerinə yetirilməsi üçün həm çoxlu, həm də az cari verilənlər əldə edilə bilər.

Bəzi məlumatlar tədqiq olunan məsələyə bilavasitə aid olmaya bilər ki, bu da proqnozlaşdırmanın dəqiqliyini aşağı salır.

Mərhələ 3. Modelin qurulması və onun qiymətləndirilməsi toplanmış məlumatların proqnozlaşdırmanın səhv olma ehtimalının minimallaşdırılması üçün proqnoz modelinin xüsusiyyətlərinə daha uyğun modelin seçilməsindən ibarətdir. Model nə qədər sadə olsa, qərarların qəbul edilməsində məsuliyyətli olan firmanın menecerlər tərəfindən daha anlaşılar və bu zaman onların əldə olunmuş proqnoza etibarı daha yüksək olar. Çox zaman daha dəqiq nəticələri təklif edən daha mürəkkəb yanaşma əvəzində, şirkətin rəhbərlərinə daha aydın olan daha sadə yanaşmaya üstünlük vermək lazım olur. Seçilmiş metod menecerlər tərəfindən dəstəkləndikdə, proqnozlaşdırmanın nəticələri də onlar tərəfindən daha aktiv şəkildə istifadə edilir.

Mərhələ 4. Seçilmiş modelin ekstrapolyasiyasl tələb edilən proqnozun faktiki şəkildə əldə edilməsini nəzərdə tutur, çünki lazımi məlumatlar artıq toplanılmış, çox güman ki, reduksya edilmiş, proqnozun mövcud modeli isə təyin edilmişdir. Çox zaman əldə edilmiş nəticələrin dəqiqliyinin yoxlanılması üçün tədqiq olunan məlumatların məlum olduğu  yaxın periodların proqnozlaşdırılması üçün istifadə edilir. Müşahidə edilən səhvlər daha sonra müəyyən şəkildə analiz edilir. Bu prosedur, 5-ci mərhələnin təsvirindən sonra müzakirə olunur.

Mərhələ 5. Əldə edilmiş proqnozun qiymətləndirilməsi hesablanmış qiymətlərlə müşahidə edilən qiymətlərin müqayisəsindən ibarətdir. Bu məqsədlə ən yeni faktiki informasiyanın bir hissəsi adətən analiz olunan çoxlu sayda verilənlər içərisindən çıxarılır. Proqnozun modeli seçildikdən sonra bu periodlar üzrı proqnoz yerinə yetirilir və əldə edilən nəticələr məlum müşahidə olunan qiymətlərlə müqayisə edilir. Proqnozlaşdırmanın bəzi prosedurları səhvlərin xalis qiymətlərinin cəmini nəzərdə tutur və bu cəmi, ya da onun proqnoz edilən qiymətlərin sayına bölməklə proqnozun orta səhvlik qiymətini təqdim edir.

Digər prosedurlar sonradan proqnozlaşdırmanın alternativ metodların üçün əldə edilən analoji rəqəmlərlə müqayisə edilən səhvlərin kvadratları cəmindən istifadə edir. Bəzi prosedurlar proqnozlaşdırma dövrü ərzində səhvlərin həddi kəmiyyətini müşahidə edir və qeyd edirlər. Makroiqtisadi göstəricilərin proqnozlaşdırma prosesi müxtəlif metodlar vasitəsilə həyata keçirilir.

ÜDM iqtisadiyyatın başlıca indikatorlarından biri olduğu üçün onun proqnozlaşdırma metodlarını daha yaxından nəzərdən keçirək.Ekstrapolyasiya, iqtisadi-riyazi modellər, deflyasiya metodu, istehsal, bölüşdürmə metodları və ÜDM-in son istifadə metodlarından geniş istifadə edilir. Qeyd edilmiş metodlardanMDB ölkələri, o cümlədən Azərbaycanda istifadə edilir.

Ekstrapolyasiya metodları makroiqtisadi göstəricilərin dinamik sıralarının dəyişməsinin mümkün tendensiyalarının müxtəlif zaman funksiyaları (trend modelləri) vasitəsilə araşdırılmasını nəzərdə tutur. Gələcəkdə iqtisadi inkişafın şərtlərinin saxlanılması şəraitində zaman funksiyaları ekstrapolyasiya edilə bilər və bununla istehsal və digər amillərin dinamikasının proqnoz qiymətləndirilmələri tapıla bilər.

Asılılıq xətti qeyri-xətti (*(t) = a + bt - xətti; $f(t)=at^b$ – dərəcəli; f(t)* $f(t) = a + b/t$ *– hiperbolik və s; a və b funksiyaların paramterləridir)* ola bilər. Qeyd etmək lazımdır ki, xətti asılılıq proqnozlaşdırma məqsədləri üçün çox da “dərin” asılılıq hesab edilmir.

İqtisadi riyazi modellər. İqtisadi artımın faktor modelləri. İqtisadi artımın modelləşdirilməsi müxtəlif praktiki funksiyaları – analitik, proqnoz, proqram funksiyalarını yerinə yetirir. Iqtisadi artım modellərindən həm keçmişin nəzəri analoqları, həm də gələcək inkişafın ehtimalı kimi istifadə edilir.

Modelləşdirilmə nəticəsində iqtisadi artımın amillərin elə kombinasiyasının axtarışı yerinə yetirilik ki, həmin kombinasiya mövcud resursları maksimum dərəcədə bir yerə toplamağa imkan versin və daha yüksək iqtisadi artımı təmin etmiş olsun.

Deflyasiya metodu. Deflyasiya qiymət indeksləri və istehsal strukturları vasitəsilə həyata keçirilir. ÜDM-in proqnoz göstəricisinin hesablanması zamanı istehlak qiymətləri indeksindən, topdansatış qiymətlərdən, ixrac qiymətlərindən, ixracdan və istehsalın proqnozlaşdırılan həcmlərindən istifadə edilir. Hesablama mərhələlər üzrə yerinə yetirilir. İlk öncə real ÜDM öyrənilir. İqtisadiyyatın sahələri iki qrupa bölüür: kənd təsərrüfatı və qeyri-kənd təsərrüfatı sahələri. Belə bölünmə

kənd təsərrüfatı istehsalının mövsumiliyi və kvartallar üzrə istehsal üzrə böyük tərəddüdlərlə bağlıdır.

Kənd təsərrüfatı və qeyri-kənd təsərrüfatı sahələri, kvartallar üzrə istehsalın həcminin dəyişmə templərinin nisbətini nəzərə alaraq istehsal həcminin illik dəyişim templəri əldə edilir. Bundan sonra proqnozlaşdırılan dövr üzrə real ÜDM aşağıdakı düstur əsasında hesablanır:

$$ÜDM_{rp}=ÜDM_b x J_{hb},$$

harada ki, $ÜDM_{rp}$-proqnozlaşdırılan dövrdə ÜDM, $ÜDM_b$-bazis dövrdə ÜDM-in həcmi, $J_{hb}$- bazis dövrlə müqayisədə ÜDM-in həcminin proqnozlaşdırılan dövrdə dəyişməsi tempidir.

İkinci mərhələdə nominal ÜDM aşağıdakı düstur əsasında hesablanır:

$$ÜDM_{np}=ÜDM_b \, x \, J_{hb} \, x \, J_{qiyÜDM}$$

$J_{qiyÜDM}$ (ÜDM deflyatoru) ÜDM-in istifadə sturkturundan (son istehlak, yığım, ixrac və idxalın nisbi həcmindən) və $J_{qiy}$ (istehlakŞ topdansatış qiymətlərindən, idxal və ixrac qiymətlərindən) çıxış edərək hesablanır.

ÜDM deflyatorunun proqnozunu aşağıdakı qaydada yerinə yetirmək mümkündür:

$$J_p^{t+1} = \frac{\sum_{i=1}^{n} P_i^{t+1} * q_i^{t+1}}{\sum_{i=1}^{n} P_i^{t} * q_i^{t+1}},$$

harada ki, $J_p^{t+1}$ - proqnozlaşdırılan qiymət indeksidir; $q_i$- $i$ məhsulunun $t$+1 dövrünə proqnozlaşdırılan həcmidir; $P_i^{t+1}$,$P_i^t$- müvafiq olaraq $t+1$ və $t$ illərində $i$ məshulunun qiymətləridir. ÜDM-in istehsal, bölüşdürmə və son istifadə metodunun mahiyyəti aşağıdakı kimidir.

*İstehsal metodu.* ÜDM aralıq istehlakın proqnozlaşdırılan ümumi istehsaldan çıxılması yolu ilə hesablanan əlavə dəyərin cəmi kimi müəyyən edilir.

*Bölüşdürmə metodu.* ÜDM maddi nemətlərin istehsalı və xidmət göstərilməsi ilə məşğul olan bütün müəssisə, təşkilatlar və əhalinin gəlirlərinin (ilkin gəlirlər,

bölüşdürülmüş gəlirlər, əsas istehsal və qeyri-istehsal fondlarının amortizasiya xərcləri) cəmi kimi hesablanır.

*ÜDM-in son istifadə metodu.* Proqnozlaşdırılan dövr üzrə ÜDM istifadə elementlərinə görə hesablanır: son istehlak, məcmu yığım və idxal-ixrac saldosu. Hesablamalar Keynsin başlıca ifadəsi əsasında aparılır:

$$Y=C+G+I+(E-M).$$

Ümumi daxili məhsulun dinamikasının dəyərləndirilməsi cəmiyyətdə iqtisadi situasiyanın dəyərləndirilməsi üçün mühüm göstərici hesab olunur və ölkədə sosial-iqtisadi inkişafın dayanıqlı xarakterinə bir sıra amillər təsir edir ki, onlar birmənalı interpretasiya edilmir. Belə ki, ümumi daxili məhsulun (ÜDM) artımı bir tərəfdən məcmu rifahın artmasını ifadə edir, digər tərəfdən isə verilmiş makroiqtisadi göstəricinin artımı əhalinin müxtəlif qrupları arasında məcmu gəlirin bölüşdürülməsinin bərabərliyini əks etdirmir (Makkonnell, Bryu,2002). Məsələn, ÜDM artımı azgəlirli əhali təbəqəsinin maddi rifahında öz təsirini az göstərə və ya ümumiyyətlə təsir göstərməyə bilər. Adambaşına düşən ÜDM-in bölüşdürülməsi də tibbi xidmətlər və təhsil sahələri kimi sosial cəhətdən əhəmiyyətli sahələrdə dinamikanı nəzərə almır. Başqa sözlə desək, vətəndaşların həyat səviyyəsi bütövlükdə adambaşına düşən ÜDM həcminin göstəricilərinin artması ilə paralel şəkildə aşağı düşə bilər.

**Qrafik 4. 1996-2017-ci illər ərzində ÜDM-in həcmi, mln. Manatla**




**Mənbə:** azstat.gov.az

Əhali istehlakımn formalaşması bütövlükdə qiymət indeksi və hər bir məhsulun qiymətinin dəyişməsi ilə əlaqəlidir. Qiymətin özünün dəyişməsi

istehlak sferasından kənarda əmək prosesində məsrəflər və bazarda tələb və təklifin tarazlığı və dəyişməsindən asılı olaraq məcmuu tələbat yaxud ayrı- ayrı məhsullar üzrə dəyişir. Qiymətin dəyişməsi istehlakın bir məhsuldar digərinə, yaxud eyni marketinq strukturunda nisbətən az keyfiyyətli və qiyməti aşağı olan məhsullar üzrə əvəz edilməsi yolu İlə mümkün olur.Bazar qiymətinin tənzimlənməsi haqqında müxtəlif fikirlər olsa da biz hesab edirik azad bazar şəraitində və rəqabət mühülünün təşkili və nəzərə alınması baxımından qiymətlərin sərbəstliyi daha çox stimul yaratmaq və inkişaf üçün xarakterikdir. Sərbəst qiymətlərin olması istehlakm dəyişməsinə təsir edir. Pul gəlirlərinin sabit və dəyişmə meyli qiymət dəyişməsi ilə eyni artım və azalma meylinə malik olursa onda tarazlıq istehlak strukturunun dəyişməsi, daha çox bahalı və ucuz mallar arasında munİpilasiyası prosesi baş verir.

Əhalinin istehlakında qiymət amili, həmçinin onun istehsalçı kimi gəlirlərinin formalaşmasına təsir edir. Əgər bazarda baha qiymətə məhsul satılırsa, onda onun istehsalçı kimi gəlirləri artır. Qiymət dəyişməsi iqtisadi sistemin bir müstəvidən digər müstəvi ilə əvəz olunmasına gətirib çıxarır. Bu zaman dövriyyədə olan pulun miqdarı dəyişir, mübadilə prosesi üçün zəruri olan pulun miqdarı artır. Qiymətlər tələb və təklifdən asılı olaraq formalaşır. Qiymətin yuxarı olması istehsalçılarda stimul yaratmaqla onun təklifini artırır. Bu da istehlakçılar üçün bazarda qiymətin aşağı düşməsinə gətirib çıxarır. Qiymətlərin dəyişmə indeksi, bir sıra xarici iqtisadi proseslərdən, o cümlədən idxal və həmçinin tənzimlənən təbii resursların qiymətlərinin dəyişmə meyllərindən asılı olaraq formalaşır. Daha çox enerji, təbii resurslar və dövlət mülkiyyətində olan məhsulların qiymətlərinin artması uyğun olaraq digər məhsulların da qiymətini artırır. Qiymət dəyişməsinin təzahürləri, bütövlükdə əmtəə və xidmət sferasına, istehsalçı və istehlakçılar arasında şaxələnir. Həmin məhsulların mübadilə və istehlak dairəsini daha çox əhatə edən subyektlərin gəlirləri və xərcləri baha çox təsirlərə məruz qalır. Ona görə də istehlakçıların qiymət dəyişməsindən əldə etdiyi “effekt” və “zərərin” mümkünlük vəziyyəti qiymətləndirilir ki, infılyasiya nəticəsində böhran halı baş verməsin.

Qiymət əmələ gəlmə proses olaraq məhsul və xidmətin istehsalında baş verən məsrəf normalarını və həmçinin tələb və təklifi qiymətləndirməklə proqnozlaşdırmaq metodikası əsas yer tutur.Qiymət indeksinin tənzimləmə üçün istifadəsi əhalinin is-tehlakına təsir etmək məqsədi ilə həyata keçirilir. İndeksləşdirmə haqqında qanunun yenidən işlənməsi, onun hər il dövlət büdcəsinin təsdiqi və icrasında indeksləşmə ilə bağlı əhalinin real istehlak səviyyəsini saxlamaq üçün istifadə edilməsi, qiymət dəyişməsindən əhalinin ahcılıq qabiliyyətinin kompen- sasiysı vacibdir. Qiymətlərin dəyişməsinə uyğun olaraq sosial müdaHə mexanizmləri, əhalinin transferi gəlirlərinin artırılmasına yönəlməlidir. Belə ki, hər hansı məhsulun qiymətinin dəyişməsi ona aJıcıhq qabiliyyətini azaldır. Gəlirlərin artması ilə infmlyasiyanın baş verilməsi haqqında müəəyən mülahizələr mövcuddur. Gəlirlərin artması dövriyyədə olan pulun kütləsinin və məcmu tələb əyrisinin artımı ilə bağlıdır. Ona görə də qiymətin qalxması nəzəri cəhətdən mümkündür. Ancaq tənzimləmə siyasəti elə aparıla bilər ki, hər hansı alıcılıq qabiliyyəti nəticəsində əmtəənin də artımı olsa, onda kompensasiya mexanizmi işə düşər və eyni məhsulun qiymətinin dəyişməsi baş verə bilər. Dövlətin tənzimlənmə siyasəti məhz ölkədə olan əmtəə təklifinin artımı ilə ümumi gəlir səviyyəsinin yüksəlməsi, əmək haqqı və pensiya islahatları həyata gəlirməklə bazarda tarazlığın qorunmasına şərait yaratmaqdır. Beləliklə qiymətə təsirlə tənzimləmə deyil, qiymətin dəyişməsinə səbəb olan amilləri tənzimləmək yolları və metodları hazırlanmalıdır.

İnfilyasiyanm tənzimlənməsi, iqtisadi iqtisadi yollarla baş verməlidir. Belə ki, Azərbaycan respublikasında infilyasiyamn dəyişməsi 1993-1994-cü illərdə 160%-ə qalxsa da, son illərdə sərbəst pul kredit siyasəti ilə onun səviyyəsi 2-3%-a qədər enmişdir. 2004-cü ildən infilyasiyamn səviyyəsinin 10%-ə qədər yüksəlməsi meyli baş verir. Respublika ölkə prezidentinin fərmanı ilə antiinfilyasiya tədbirləri həyata keçirmək məqsədi ilə 2005-ci ildə fərman vermişdir. Əsas məqsəd dövriyyədə pul kütləsinin infilyasiyaya təsiri azaltmaq üçün xərclərin səmərəli strukturunu təmin etmək və inkişafa şərait yaratmaqdır. İnfılyasiyanm iki rəqəmli həddi keçməsi haqqında fikirlər maraqlarda izah oluna

bilər və onun qarşısını almaq tədbirləri müxtəlif əsaslandırmalar ilə həllim tapır. Fikrimizcə, inkişaf üçün infılyasiya iki rəqəmli həddi keçirsə, onda onun «səmrəsi» iqtisadi artım və sosial “effektlə” müəyyənləşməlidir. İnfilyasiyanın qarşısını almaq üçün anti inhisar fəaliyyəti, rəqabət mühütü və təşəbbüskarlıq yaratmaq tədlbirləri daha prioritet üsullar olaraq dövlət tərəfindən tənzimlənməlidir. İnfılyasiyanın dəyişmə dinamikası ilə gəlirlərin arasında nisbətlər istehlakının strukturuna təsir edir.

O, cümlədən əhalinin yığıma olan tələbi azalır. Əhalinin əmanətlərinin alıcılıq qabiliyyətinin infılyasiya nəticəsində azalması, son nəticədə cari xərclərin çəkilən daşınmaz xərcləri artırır. Belə ki, mənzil torpaq bazan bir daha əhalinin istehlak bazarında üstünlük təşkil etdikcə və əmanətlərin infılyasiya qorxusu olduğu üçün əhalinin əmanət saxlamağa marağı azalır. Bu da infılyasiya mənbəi olaraq əhalinin yığımının xüsusi çəkisini azaldır. Respublikada pul kütləsinin artması, pulun alıcılıq qabiliyyətində infılyasiya tutumu əmtəələrin daşınmaz əmlakın üstün artması, bütövlükdə istehlakın optimal strukturunun pozulmasına gəlirib çıxarır.Antiİnfilyasiya tədbirlərinin sosial nəticələri əhalinin yığıma olan stimulunu qaldırmaq, yığımın vəsaitlərinin qorunmasını təmin etmək və həmçinin invistisiya layihələrinin planlaşdırılması maliyyə imkanları çərçivəsində reallaşmasını təmin etməkdir. İnfılyasiyanın olması iqtisadi reallıq baxımından və müəyyən vəsaitlərin xərclənməsi və bank sektorunda dövriyyə surətinin artmasına səbəb olur.İnfılyasiyanın həddləri hər bir ölkədə islahatlar və transformasiya istiqamətlərinə uyğun olaraq müəyyənləşir.

İnfilyasiyanın optimal ölçüsü daxil etmək yox imitasiya şəraitində tənzimləmək vacibdir.İnfılyasiyanın sosial iqtisadi nəticələri dövlətin himayəçilik, sosial müdafiə və müavinat sistemini hazırlamağa onun mexanizmlərini təkmilləşdirməyə əsas verir. Belə ki, qiymətlərin dəyişməsi məhsullar üzrə differensiallaşır. Elə məhsullar var ki, həmin məhsullar istehlakçı qruplarının islahlak seqmentində aparıcı rol oynayır. Onda qiymət dəyişməsində sosial müdafiə məruz qalmaq şansı bir qrup əhalidə daha kəskin baş verir. Dövlət məhz bu qrup əhalinin sosial müdafiə nçaq- lan ilə onların həyat səviyyəsinin tənzimlənilməsini

bərpa edir. İslehlak bazarında infilyasiya pulun daha çox xərclənməsinə, əhalinin istehlak sabitinin məzmunun dəyişməsinə yığım üçün stimulun azalması ilə nəticələnir. İnfilyasiya nəticəsində bəzi istehsalçılar və biznes fəaliyyəti ilə məşğul olanlar Öz məhsullarının qiymətini artırmaqla mənfəətini azaltmamağa can alırlar.

Lakin məhsulun qiymətinin artması hesabına onun məsrəfləri də artır. Beləliklə infilyasiya təsirində iqtisadi sistem başqa nəticə müstəvisində yeni spektr alır. Ona görə do infilyasiya əmələ gətirən səbəblərin süni yolla yaradılması iqtisadi və sosial siyasətin baş verən qeyri səlist dəyişmələri nəzərə alınması ilə bağlıdır. İnfilyasiya həmçinin qloballaşan iqtisadi siyasət sferasında aparılan bir sıra beynəlxalq tədbirlərin həyata keçirilməsi ilə baş verir. Kapital axını ilə ayrı-ayrı əyalətlərin ucuz resruslarından istifadə etməklə dünya qiymətlərinə uyğun məhsul istehsalı və sonradan onu dünya qiymətləri ilə satışı nəticəsində əldə edilən pul vəsaitlərinin kredit resursu kimi yenidən bölgüsü, infilyasiya yükünün kasıb ölkələrdə reallaşmasına səbəb olur. Çirkli pullar kasıb və invistisiya tələb edən ölkələrdə yuyulur. Belə ki, daxili texnalogiyalann dünya standartlarına uyğun olması və həmin standartların yaxınlaş- dınlması marağının həllinə məhdud tənzimlənməsi son nəticədə hazır məhsulların miqrasiyası ilə deyil xammal resrusları- mn daşınması ilə baş verir. Respublika ərazisində pul kütləsinin artımı həmin ərziyə axan vəsaitlər ilə də müəyyənləşir.

Azərbaycan respublikasında xarici ölkələrdən gələn pulun miqdarı bir sıra mənbəələr üzrə formalaşır. Belə ki, infrastruktur bazarının imkanları və onların beynəlxalq layihələr məqsədi ilə istifadəsi, Azərbaycan əhalisinin digər respublikalarda miqrasiyası hesabına əldə olunan gəlirlərin respublikada istifadəsi və həmçinin xarici dövlətlərin banklarında əhali və sahibkarların yığımının azalması son nəticədə pul kütləsinin respublika daxilində istehsal və istehlak yönlü xərclərə yönəldilməsinə gətirib çıxarır. Beləliklə, infılyasiya dünya iqtisadi sistemdə xarici təsirlərlə dəyişilən bir prosesdir. Biz qiymətə iqtisadi mexanizm kimi baxmaqla istehsal və istehlakın tarazlığını, onların dinamikasını və artım sürətlərini müəyyən edirik. Qiymətlə istehlak arasında əlaqə birmənalıdır.

Yəni istehlak olunan məhsulların qiymətləri artdıqda onların ümumi dəyəri artır və uyğun olaraq əhalinin gəlirləri, yığım fondu istehlak fondu artırıhr. İstehlaka qiymətin təsiri isə əks təsir xarakteri daşıyır.

Qiymət dəyişdikcə istehlakın həcmi azalır, strukturasında aşağı qiymətdə olan məhsulların xüsusi çəkisi artır və istehlakın artırılmasına stimul azalır. Beləliklə qiymətin dəyişməsi tələblə təklif arasında müvazinətin və qarışıqlıqlı təsirin yaranmasında, formalaşmasında ortaq mexanizm rolunu oynayır. Əgər hər hansı məhsulda qiymət artırsa, bu istehsalçı üçün əlavə uduş deməkdir və istehlakçı çox həvəslə qiyməti yuxarı olan məhsulun istehsalını artırır. Bu zaman əlavə kapital qoyuluşuna ehtiyac olur və əlavə resurslar tələb olunur.

Qiymət dəyişməsi yığırm azaldır, əlavə bazarlar tələb edir.Proses o vaxta qədər davam edir ki, bazarda bu əmtəələrin təklifi tələbatla tarazlaşır. Qiymət müəyyən həddə çatır. Sonrakı prosesdə istehsalın artımı qiymətin aşağı düşməsinə səbəb olur. Bazarda həmin əmtəənin təklifi tələbatdan çox olur. İstehlakçının alıcılıq qabiliyyəti artır. İstehsalçı isə qiymətin düşməsindən istehsalını başqa əmtəənin səmtinə yönəldilir. Beləliklə qiymətin tələb və təklifə təsiri bazar iqtisadiyatı şəraitində formalaşır. Bu qanunauyğunluğu dərk edən işində tətbiq edən 2 subyekti olur: alıcı - satıcı, istehsalçı. İstehlakçı özünə uyğun olaraq mənfəət əldə edir, yaxud zərər çəkir. Qiymətin maya dəyərindən yuxarı olması nəticəsində istehsalçı üçün əlavə mənfəət yaradır. İstehsalçı bazar iqtisadiyyatı şəraitində yuxarı qiymət olan bazarları seçir, əsaslandırır və həmin bazarlarda ticarəti təşkil edir. İstehlakçı isə alıcılıq qabiliyyotino uyğun olaraq əmtəə təklifinin daxilində bütün mümkün qiymətlərdən onun gəlirinə uyğun olanını seçir.

Qiymətlə tələb-təklif və istehlak arasında birbaşa əlaqə var. Bu əlaqələr tələb qanununun mahiyyətindən onun dinamikasında baş verir. Tələb qanunu aşağıdakı formada ifadə olunur. Hər hansı əmtəəyə olan tələb, həmin əmtəənin mövcudluğu şəraitində və həmin əmtəənin tələbatın ödənilməsində rolunun olması şəraitində qiymətin artması ilə tələb azalır. Qiymətin azalması ilə tələb artır. Tələb təklifin müəyyən normal hədləri şəraitində Pı qiymətinə uyğun olaraq qı

tələbi mövcuddursa P2 qiymətinə uyğun olaraq qz tələbi mövcuddur. Bu qanun qeyd edək ki, son hədlər prinsipi əsasında formalaşır. Yəni qiymətin istənilən qədər yuxarı olmasından həmin əmtəəyə olan tələb qiymətdən asılı olaraq dəyişilir.

Qiymətin sonrakı dəyişməsi alıcı üçün mümkün olmayan hesab olunur. Qiymətin çox aşağı olması isə həmin məhsulun təklifinin o qədər çox olmasına gətirir ki, alıcı bu əmtəə ilə tam təmin olunur. Bu əmtəə ilə qiyəmtin arasında isə asılılıq düz mütənasib olub, qiymətin artması ilə əmtəə təklifinin artması müşahidə olunur. Qiymətin dəyişməsi real gəlirlərin və istehlakın formalaşmasının təminedici amilidir. Bazar iqtisadiyyatı şəraitində qiymətlə istehlak arasında qanunauyğunluğu tənzim elmək üçün qiymət indekslərindən istifadə olunur.

İstehlakçı dəyişməsi ilə qiymətin dəyişməsi arasındakı münasibət belə ifadə olunur (N. Antonovanın redaktəsi altında. səh. 360).

Qiymət indeksinin bazar iqtisadiyyatı şəraitində mütəmadi olaraq təhlili və proqnozu əhalinin həyat səviyyəsini tənzim etməyə istifadə olunur. Bu halda iqtisadi qanun olaraq gəlirlərin indeksasiyası Milli Məclis tərəfindən hazırlanmalıdır. Qanunun reallaşmasa mexanizmi qiymtələrin dəyişməsinə uyğun olaraq gəlkləri tənzim etmək üçün əmək haqqının minimum səviyyəsinin, təqaüd, pensiya və s. gəlirləir qiymətdən asılı ola raq artırılması ilə reallaşdırılır. Bazar iqtisadiyyatı şəraitində qiymətlər liberal (azad) qiymətlərdir.

Lakin qiymətlərin inhisar qiymətlərinə çevrilməsinin qarşısını almaq üçün dövlət tənzimlənməsi vacibdir. Bu məqsədlə qiymət komissiyası bəzi ən vacib, zəruri məhsulların qiyməti üzərində nəzarət məqsədi ilə dövlət səviyyəsində güzəştlərdən, müavinətlərdən istifadə edə bilər.

Bəzi istehsal sahələri öz məhsullarını qiymətini onun maya dəyərindən aşağı saldıqda, onlar gəlirsiz fəaliyyət göstərirlər. Bəzən həmin müəssisələr əmək haqqı verməyə imkanları olmur. Bu da həmin müəssisələrin aradan çıxmasına səbəb olur.

Bu müəssisələrin sosial əhənliyyətinİ və strateji məqsədlərdə rolunu nəzərə alaraq dövlət həmin müəssisələrə mərkəzləşmiş fondlardan əlavə vəsait ayıra bilər.

Qiymət elə bir iqtisadi mexanizmdir ki, o istehlakm özünü tənzimləmə cəhətlərinə malikdir. Bu zaman istehlakçı tələbatın ödənilməsində funksional (tələbatın) təyinatına görə eyni olan, lakin qiymətləri müxtəlif olan məhsul və xidmətlərdən eləsini seçir ki, ona baha gəlməsin bəzən istehlakçı baha əmtəə və xidmətin (baxmayaraq keyfiyyəti yuxandır) əvəzinə qiyməti aşağı miqdarca çox ucuz əmtəələr seçilir.

Hər hansı əmtəə və ya xidmətə zəruri ehtiyac olduğu halda onun qiymətinin nisbətən yuxan olması istehlakçının başqa əmtəəyə üz tutmasına səbəb olur. Beləliklə, qiymət dinamikası əmtəə və xidmətlərin bir-birini əvəz etməsinə gətirir. Bu da son nəticədə istehlak sferasında əhalinin davranış qabiliyyəti onun pul gəliri, ailə tərkibi, təminat səviyyəsi və həyat tərzi ilə bağlıdır.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Tətqiqat işinin nəticəsi olaraq deyə bilərik ki, bazar iqtisadiyyatı sisteminin formalaşması və inkişafının əsas istiqaməti olaraq əhali istehlakının qiymətləndirilməsində əhali gəlirlərinin mahiyyəti, dinamikasının öyrənilməsi, bölgüsü və istehlakının sosial-iqtisadi nəticələrini qiymətləndirməklə perspektiv idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsi elmi-nəzəri və praktiki cəhətdən əsaslandırılması vacibdir.

Əhalinin istehlakının başlıca mənbəyini xarakterizə edən informasiya mənbələrinə aşağıdakılar aid olunur:

- İstehlakın adambaşına və istehlak vahidinə düşən natural və pul göstəricilərinin əsasında qurulan və istehlakın strukturu, dinamikası və differensasiyası tədqiq olunan təsərrüfatlarının büdcələrinin seçim müşahidəsi üzrə məlumatlar;
- Pərakəndə məhsul dövriyyəsinin həcmi və strukturu haqqında ticari statistikanın verilənləri;
- Maliyyə statistikasının məlumatları əsasında məhsul və xidmətlərin alışı və yığımının asılılığını göstərən pul gəlirləri və xərcləri balansı;
- İstehlak resurslarının formalaşması və istifadəsində iştirak edən müəssisə və təsərrüfatların fəaliyyətinin statistikası. Onun əsasında istehlak resurslarının balanslarl qurulur, əhali tərəfindən başlıca yeyinti məhsullarının istehlak fondu qurulur və istehlakın adambaşına düşən natural göstəriciləri hesablanır, istehlakın dinamikası öyrənilir.

İstehlakın forma və strukturu proporsional olaraq gəlirlərin forma və strukturu ilə tarazlaşır, natural istehlak dəyəri həm gəlirdə, həm də istehlakda pul ifadəsi ilə deyil, məcmu gəlir ifadəsi ilə əks olunur. Məcmu gəlir anlayışı geniş istehlak davranışını daxil etməklə məcmu tələbatın ödənilməsinin maddi əsasını müəyyən edir. Bu səbəbdən təkcə pul şəklində olan və bölgü məqsədli məhdudlaşan xalis gəlirləri deyil, həmçinin geniş təkrar istehlakı təmin edən və aralıq istehsal prosesində natura formasında istehlak edilən maddi və mənəvi dəyərləri də nəzərə

alırıq. Məhz bu aspekdən yanaşdıqda, kəmiyyət baxımından gəlirlər Ümumi Daxili Məhsulun istehsal təyinatlı və istehlak üçün ayrılan hissəsinin gəlirlərdən çox olması hesabına baş verir. Bu  baxımdan Ümumi Daxili Məhsul, əhali istehlakı və sosial müdafiəsi məqsədi ilə aynlan vəsaitlərin məcmusu, istehlak təyinatlı məqsədlər və büdcədən ayrılan xərclər hesabına əhaliyə təmənnasız göstərilən xidmətlər məcmu gəlirlərin tərkib hissəsidir.

Normal şəraitdə gəlir səviyyəsinin miqdarının artması marjinal istehlak əyrisinin mailliyinin azalmasına səbəb olur, lakin müəyyən bir gəlir səviyyəsinə çatana qədər marjinal istehlak öz maili stabilliyini qoruyur. Marjinal istehlak əyrisində marjinal istehlakın azaldığı yer qənaətin başlandıc nöqtəsi hesab edilir. Marjinal qənaət nöqtəsindən aşağıda qalan hissədə gəlirlərin istənilən səviyyəyə çatması üçün maliyyə miqdarının hesablanması məqsədəuyğundur və gəlirin müəyyən həddə çatması eyni nisbətdə istehlakın artımına səbəb olacaq.

Əhalinin həyat səviyyəsi nöqteyi-nəzərindən əhalinin ərzaq, geyim, ayaqqabı, mənzil tələbatları aid olunan ilkin tələbatlarının ödənilməsinə çəkilən xərclərin analizi prioritetli məsələlərdən biri hesab edilir. Ərzaq məhsullarına ailə büdcəsinin xərcləri əhalinn maddi durumunun sosial indikatoru hesab edilir, belə ki, onun həcmindən asılı olaraq ailə büdcəsinin digər hissəsinin strukturunun, eyni zamandahəyat səviyyəsinin daha yüksək pilləsini xarakterizə edən hissələrin hansı formada formalaşması asılıdır.

İstehlak xərclərinin strukturunun analizi təkcə orta statistik göstəricilərlə yekunlaşmır. Istehlakın tədqiqinin mühüm məsələlərindən biri  adambaşına düşən yüksək və aşağı gəlirlərə sahib ev təsərrüfatlarının (ailələrin) və xüsusilə həddən artıq aşağı səviyyədə  maddi təminatlılığa malik əhali qrupları arasında olan istehlakının səviyyəsi və strukturunda olan fərqlərin müəyyənləşdirilməsi hesab edilir. Bu məqsədlə ev təsərrüfatlarının büdcələrinin tədqiqi əsasında verilənlər adambaşına düşən gəlirə (maddi, məcmu) qruplaşdırılır, istehlak xərclərinin müvafiq ölçüləri və onların struktrunun xüsusiyyətləri müəyyənləşdirilir. İstehlakda qeyri-bərabərlik gəlirlərin bölüşdürülməsində olan qeyri-bərabərliyin qiymətləndirilməsinə uyğun dəyərləndirilir. Çox zaman desil qrupların aşağı və

yuxarı istehlakında olan fərqlərə görə, yəni tədqiq edilmiş minimum və maksimum gəlirlərə sahib olan əhalinin 10 %-i üzrə tədqiq edilir.

Ümumiyyətlə, əhalinin məşğulluğunun artması sosial-iqtisadi nöqteyi nəzərdən ictimai vəziyyətin yaxşılaşmasına, istehsal amillərindən və resurslardan düzgün istifadə nəticəsində məhsul istehsalının artımına, gəlirlərin bərabər səviyyədə bölgüsünün həyata keçirilməsinə, istehlakın artmasına səbəb olur ki, iqtisadi nöqteyi nəzərdən bu sistem zəncirvari və dövri olaraq həyata keçirilir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

### Azərbaycan dilində


1. Azərbaycan Respublikasının Konstitusiyası. Azərbaycan Respublikasının Qanunlar Külliyyatı. Bakı, 2001
2. Məşğulluq haqqında Azərbaycan Respublikasının Qanunu. Məşğulluq haqqında normativ sənədlər toplusu. Bakı, 2002
3. Minimum əmək haqqı haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 2004
4. "Azərbaycan Respublikasında vətəndaşların pul gəlirlərinin və əmanətlərinin indeksləşdirilməsi haqqında" Azərbaycan Respublikası qanunu, Bakı şəhəri, 17 iyun 1992-ci il, № 174.
5. "Yaşayış minimumu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 dekabr tarixli 170 nömrəli Fərmanı
6. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 10 may 2012-ci il Tarixli № Q-15 nömrəli qərarı
7. Yoxsulluğun Azaldılması və İqtisadi İnki şaf üzrə Dövlət Proqramı (2004-2008-ci illər). Bakı, 2004
8. Azərbaycanın statistik göstəriciləri, ADSK, Bakı, 2017
9. A.Ə.Əliyev, N.Ə.Qasımov (2000) "Azərbaycanda əhalinin həyat səviyyəsinin yüksəldilməsinin aktual problemləri, Bakı "Səda"
10. Abbasov A.F., (2002) Yoxsulluğun qarşısının alınması dövlətin sosial təhlükəsizliyinin təmin edilməsinin faktoru kimi «Çoxmülkiyyətçilik şəraitində koopeorasiyanın inkişafının sosial-iqtisadi problemləri» elmi-praktik konfransın materialları Bakı «Kooperasiya» nəşriyyatı 416 s.
11. Litvinov B. (1999), Qiymətlər gəlirlərdən daha sürətlə artır. İqtisadiyyat və həyat, 452 s.
12. Şestakova E. (2004). Gəlirlərin indeksləşdirilməsi: dünya təcrübəsi. REA-Xəbərçi. 362 s..

13. İbrahimova X., Cəlilova R., Qurbanova T (1999). Əhalinin gəlirlərinin və istehlakının formalaşmasında sakhibkardığın rolu Müasir mərhələdə Azərbaycanın sosialiqtisadi inkişafının əsas meylləri (məqalələr toplusu) IV buraxılış Bakı "Elm" 344 s.
14. İqtisadiyyatın proqnozlaşdırılması və planlaşdırılması: Dərs vəsaiti / V. Boriseviç, Q. Kandaurovanın redakrotluğu altında. 2002-ci il, səh 432.
15. İmanov C.Q. Həsənli Y.H (2001). Azərbaycanın sosial-iqtisadi inkişafının modelləri. Bakı : Elm, 248 s.
16. Quliyev C.B (2004). "Müstəqillik illərində Azərbaycan Respublikasında əhalinin həyat səviyyəsinin dəyişilməsi meylləri və ona təsir edən amillərin qiymətləndirilməsti" İqtisadiyyat, Humanitar və ictimai elmlər seriyası, Xəbərlər 1-312 s.
17. Quliyev F.T (2004). Gəlirlər nəzəriyyəsi. Bakı, 512 s.
18. Akuliç.M. Cədvəl, düsturlar və sxemlərdə statistika, 2009 - s.128.
19. Antonova N. (1998) İqtisadiyyatın dövlət tənzimlənməsi: Mühazirə kursu/ redaktəsi altında. 360. S
20. Məmmədli O.Q., Cavadov N.Ə., Cavadzadə X.N. (2005) Sosial-iqtisadi statistika, Dərslik, 125 s.
21. Sosial statistika: Dərslik/ İ.Yeliseyevanın redaktəsi altında, 2003-s.480.
22. Statistikanın ümumi nəzəriyyəsi: kommersiya fəaliyyətinin tədqiqində statistik metodologiya, Dəsrlik/ O. Başina, A. Spirinanin redaktəsi altında, 2005, s-440.
23. Qerasenko V. Bazar iqtisadiyyatının idarə edilməsinin proqnostik metodları. 1997-ci il. səh. 320
24. Qolubenko V. (2004). Gəlirlərin indekləşdirilməsi bu gün. Mühasibatlıq. 236 s.

**Xarici dildə**

1. Бабашкина А.М (2003). Государственное Регулирование национальной экономики: Учеб. Пособие. М.Финансы и статистика, 480 с

2. Гусейнов Р.М. (2001), Горбачева Ю.В., Рябцева В.М. История экономических учений: Учебник / Под общ. ред. Ю.В.Горбачевой. М.: «Инфра-М", 252 с
3. Дащинская Н.П (2007). Международная статистика, Учебное пособие, Издательство: Издат. центр БГУ (Минск), 412 с.
4. Едронова В.Н (2001)., Едронова М.В. Общая теория статистики: Учебник. - М.: Юристь, 365
5. Ефимова М.Р., Петрова Е.В, Румянцев В.Н (1999). Общая теория статистики: Учебник. - М.: Инфра-М, 475 с.
6. И.И. Елисеевой. М.: (2002) Социальная статистика. Под ред. Финансы и статистика, 478 с.
7. История экономических учений (2004). - 4-е изд. - М.: "Инфра-М", 480 с
8. Курникова Е.Л., Тарлецкая Л.В (2008). Основы статистики, Учебное пособие Издательство: МГИМО 563 с.
9. Левашов В.И (2000). Социальная политика доходов и заработной платы. М., 263 с.
10. Мамедова О.Ю (2006) Современная Экономика/под. ред. ., Ростов на Дону, 543 с.
11. Чепурина М.Н.( 1998), Курс экономической теории: Учебник/ Под ред. Проф. проф. Киселевой Е. А. - Киров.: Издательство АСА, с 442-454
12. Шаталин Е.С (1999). Методологические Проблем Анализа народново благосостояния Вопросы Экономики, №10, 456 с.
13. Юнити-Дана, (2002) Социально-экономическая статистика: учебник для вузов / Под ред. Башкатова Б.И. - М.: 236 с.

1. Andrew B.Abel, Ben S. Bernanke, Dean Croushore (2012). Macroeconomics, 6th ed. 310 p.
2. Beck T., Lundberg M., Majnoni G (2000). Financial Development and 89 Economic Volatility: Does Finance Dampen or Magnify Shocks - World Bank. – 458 p.
3. Debt Maturity (1999) // Journal of Financial Economics.. - № 54. – 652 p.

4. Durlauf, Steven N.,Hester, Donald D.(2008) “IS-LM”. In Durlauf, Lawrence E.; Blume. The New Palgrave Dictionary of Economics (Second ed.).Palgrave Macmillan.retrieved 5 June 2012. 425 p.
5. Peston, Maurice (2002). “IS-LM model: closed economy”.In Snowdon, Brian; Vane, Howand R. An Encyclopedia of Macroeconomics.Edward Elgar. Peston 387 p.

## İnternet resursları

1. www.stat.gov.az saytı, Bülleten N 01, 2019-cu il, İstehlak qiymətllələri indeksi.
2. www.macroeconomicanalysis.com
3. www.economy.gov.az

## Cədvəllərin siyahısı

Cədvəl 1. Azərbaycan Respublikasında minimum istehlak səbətinin tərkibi.........19
Cədvəl 2. 2013-2017-ci illər üzrə ev təsərrüfatlarında ayda adambaşına düşən istehlak xərcləri, manatla ..........................................................................................36
Cədvəl 3. 2017-ci ildə ev təsərrüfatı başçısının sosial-iqtisadi statusuna görə ərzaq məhsullarının istehlakı..........................................................................................37
Cədvəl 4. 2013-2017-ci illər üzrə ev təsərrüfatlarında ayda adambaşına düşən gəlirlər, manatla.........................................................................................................38
Cədvəl 5. Sənaye inkişafı meyarı üzrə adambaşına düşən gəlirə görə ölkələrin mənsubiyyəti..........................................................................................................57

## Şəkillərin siyahısı

Şəkil 1. İstehlakın formalaşması......................................................................12
Şəkil 2. İS-LM modeli........................................................................................27
Şəkil 3. Dövrü axın modeli.................................................................................34
Şəkil 4. İnflyasiyanı törədən istehlak artımı.......................................................54

## Qrafiklərin siyahısı

Qrafik 1. İS modeli……………………………………………..……………28
Qrafik 2. 2007-2017-ci illər üzrə ev təsərrüfatlarında ayda adambaşına düşən istehlak xərcləri.....................................................................................................58
Qrafik 3. Azərbaycanda 2007-2017–ci illər ərzində istehlak qiymətləri indeksi....67
Qrafik 4. 1996-2017-ci illər ərzində ÜDM-in həcmi..............................................74